RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 33 (8912) BAZAR, 13 fevral 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Cənubi Qafqazın ən etibarlı tərəfdaşı

## İlham Əliyev yeni hədəfləri ilə dünyaya Azərbaycanın müasir vizyonunu təqdim edir

**Müstəqilliyinin bərpasından ötən 31 ildə heç vaxt indiki kimi güclü, qüdrətli və istiqrarlı olmayan Azərbaycan bu gün dünya düzənində özünəməxsus yer tutan ölkəyə çevrilib. Bunun yeganə və birmənalı səbəbi isə Prezident İlham Əliyevin tam müstəqil siyasət yürütməsi, ölkənin iqtisadi qüdrətinin getdikcə daha da güclənməsidir.**

Əgər diqqət yetirsək görərik ki, son 19 ildə Azərbaycanın əldə etdiyi uğurları inkişaf etməkdə olan ölkələrin əksəriyyəti bəlkə də heç 50 ildə qazana bilməyiblər.

### Cənubi Qafqazın ən fəal siyasi və iqtisadi aktoru

Yüksək nailiyyətlərlə zəngin olan daha bir ili arxada qoyduq. 2021-ci ildə - postmüharibə dövründə müstəqilliyimizin bərpasının 30-cu ildönümünü qürurla, fəxarətlə qeyd etdik. 44 günlük Vətən müharibəsindəki Şanlı Zəfər qürurumuzu, mənliyimizi özümüzə qaytarmışdı. Qalib dövlət kimi işğaldan azad edilmiş torpaqlarımızda abadlıq-quruculuq işlərinə başladıq. Dünya Azərbaycanın iqtisadi qüdrətinə bir daha şahidlik etdi.

Bir vaxtlar iqtisadi müstəqilliyini təmin edə bilməyən, xaricdən aldığı yardımlarla gün keçirən, zəngin təbii ehtiyatları ola-ola əhalisinin enerjiyə olan tələbatını idxal hesabına ödəyən Azərbaycan cəmi 31 ilə Müzəffər Orduya, güclü iqtisadiyyata, müstəqil siyasətə sahib oldu, qüdrətli dövlətə çevrildi. Dünya artıq müstəqil Azərbaycanı qlobal layihələr həyata keçirən, islahatlar aparan, regional əməkdaşlığa və qlobal enerji təhlükəsizliyinə əhəmiyyətli töhfələr verən etibarlı tərəfdaş ölkə kimi qəbul edir.

Müstəqillik dövründə ölkə iqtisadiyyatına 300 milyard dollar investisiya qoyulması, xarici ölkələrə yatırımlar etməsi, valyuta ehtiyatlarını 63 milyard dollara yüksəltməsi hər ölkəyə nəsib olmayan möhtəşəm nailiyyətlərdir.

İkinci Qarabağ müharibəsindəki şanlı Zəfərdən sonra regionda yaranan yeni reallıqlar və bölgədə diktənin Azərbaycana məxsus olması bir daha təsdiq edir ki, ölkəmiz Cənubi Qafqazın ən fəal siyasi və iqtisadi aktorudur.

Fevralın 2-də Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumunda İlham Əliyev son 31 ildə əldə edilən uğurlu nailiyyətlərdən danışdı və gələcək hədəfləri, müəyyənləşdirdiyi inkişafın yol xəritəsini gənclərə təqdim etdi. Müstəqillik illərində Azərbaycana qarşı hücumlara, çirkin kampaniyalara diqqət çəkən Prezident dedi ki, bütün bunlara baxmayaraq, indi ölkəmiz müstəqildir və müstəqil siyasət aparır. Heç bir kənar qüvvə işimizə qarışa bilməz. Düzdür, müxtəlif dövrlərdə antiazərbaycançı şəbəkə tərəfindən kampaniyalar təşkil edilib. Amma bunların hamısı bumeranq effekti verib və bu cəhdlərin heç bir nəticəsi olmayıb.

Azərbaycanın apardığı müstəqil siyasət ölkəmizi Cənubi Qafqazın ən etibarlı tərəfdaşına çevirib. Bu gün Azərbaycanın razılığı olmadan bölgədə bir dənə də qlobal miqyaslı layihə reallaşa bilməz. Amma Azərbaycan öz gücünə və qarşılıqlı şəkildə reallaşdırdığı qlobal miqyaslı layihələrlə Avropanın enerji təhlükəsizliyinin təminatçısı statusuna sahiblənib.

*Ardı 3-cü səh.*

# “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında” Şuşa Bəyannaməsinin təsdiq edilməsi barədə

## Azərbaycan Respublikasının QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında” 2021-ci il iyunun 15-də Şuşa şəhərində imzalanmış Şuşa Bəyannaməsi təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2022-ci il*

# İlham Əliyev erməni vandallığını və saxtakarlığını ifşa edir

## UNESCO-nun göndərəcəyi missiyasının obyektiv monitorinqi dünyanı Azərbaycan xalqının mədəni irsinə qarşı törədilmiş cinayətlərdən xəbərdar edəcək

Prezident İlham Əliyevin, Fransa Prezidenti E.Makronun, Avropa İttifaqı Şurasının prezidenti Ş.Mişelin və Ermənistanın baş naziri N.Paşinyanın iştirakı ilə fevralın 4-də keçirilən görüşdə müzakirə olunan məsələlərdən biri də UNESCO-nun Azərbaycana və Ermənistana missiyasının göndərilməsi idi. Müzakirələrin yekununda hər iki ölkəyə UNESCO-nun missiyasının göndərilməsinə dair razılıq ifadə olundu.

### Məkrli fəaliyyət

Ermənistan və erməni millətçiliyi yalnız Azərbaycan torpaqlarını işğal etmək, xalqımıza qarşı soyqırımları, müharibə cinayətləri törətməklə kifayətlənməyib. Tarix boyu xalqımıza məxsus milli, tarixi və dini mədəniyyət nümunələri də ermənilər tərəfindən özününküləşdirilib, bu mümkün olmadıqda isə dağıdılıb. Məsələn, Göy məscid, Qala Məscidi, Şah Abbas, Təpəbaşı, Zal Xan, Sərtib Xan, Hacı Novruzəli Bəy, Dəmirbulaq, Hacı Cəfər Bəy, Rəcəb Paşa, Məhəmməd Sərtib Xan, Hacı İnam Məscidi kimi 300-dən çox məscid XX əsrin əvvəllərində qəsdən dağıdılıb, özününküləşdirilib və ya digər məqsədlərlə istifadə edilib. Azərbaycanlılara məxsus 500-dən çox qəbiristanlıq məhv edilib, Göyçə mahalında, doğulduğu kənddə qəbirüstü abidəsi ucaldılmış Azərbaycan xalqının böyük şairi Aşıq Ələsgərin qəbri dağıdılıb.

Bütövlükdə, Ermənistan tərəfindən işğal olunmuş tarixi torpaqlarımızda xalqımızın tarixi izlərini itirmək üçün minlərlə mədəni irs abidəsi bilərəkdən və məqsədyönlü şəkildə məhv edilib.

*Ardı 2-ci səh.*

# Gənclər siyasəti dövlətimiz üçün hər zaman prioritet olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi dövlət siyasətində gənclərlə bağlı məsələlər hər zaman mühüm yer tutur. Gənclər siyasəti dövlətimiz üçün daim mühüm prioritet təşkil edir.**

Bu, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi milli-strateji inkişaf kursundan irəli gələn yanaşmadır. Azərbaycanda gənclərlə bağlı xüsusi günün - 2 Fevral Gənclər Gününün olması da bu siyasətin formalaşdırdığı tarixi dəyərdir.

Düz iyirmi beş il bundan əvvəl Ulu Öndər Heydər Əliyevin iştirakı ilə ölkəmizdə ilk dəfə gənclər forumu keçirildi. Ümummilli Liderin müvafiq sərəncamı əsasında Azərbaycanda Gənclər Günü təsis edildi. O gündən indiyə qədər hər il fevralın 2-si ölkəmizdə Gənclər Günü kimi qeyd edilir, gəncliyin istəklərinə, gələcək hədəflərinə, problemlərinə və onların həlli yollarına ciddi diqqət yönəlir.

Bu xüsusi münasibət heç də təsadüfi deyil. Hər bir cəmiyyətin gəncliyi onun gələcəyidir. Cəmiyyətin firavanlığını, xoşbəxtliyini təmin etməkdən ötrü onun gəncliyini düzgün istiqamətləndirməlisən. Gənclik yeni ideyalarla, böyük məqsədlərlə coşan, qarşısına böyük hədəflər qoyan və bu hədəflərə çatmaq üçün tükənməz enerjiyə sahib əhəmiyyətli sosial qrupdur. Bütün cəmiyyətlərdə gənclərə səmimi-qəlbdən dəstək olmaq istəyənlər, onların potensialından ölkənin, cəmiyyətin, daha geniş götürsək, ümumən bəşəriyyətin xoşbəxt gələcəyi naminə faydalanmağa çalışanlar olur. Amma bununla yanaşı, əfsus ki, gəncliyi öz bədxah məqsədlərinin alətinə çevirmək istəyənlər də tapılır. Ona görə bu aparıcı təbəqənin taleyi üçün də tarix heç zaman unudulmamalıdır. Baş verənlərdən nəticə çıxarılmalıdır. “Məhz düzgün təhlil apararkən, tarixdən ibrət götürərkən biz inamla irəliyə gedə bilərik”. 2022-ci ilin 2 fevralında Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumundakı çıxışı zamanı dövlət rəhbərimiz İlham Əliyev belə dedi.

### Gəncliyin ümidi

Müstəqilliyimizin ilk illərində Azərbaycanda arzuları önündə böyük əngəllər yaranmış gənclik vardı. Ölkədə vəziyyət çox ağır idi. Azərbaycan qarşısında ciddi, fundamental problemlər dayanmışdı. Ermənistanın işğalı ilə üzləşmişdik.

*Ardı 3-cü səh.*

# Azərbaycanın daha çox elektrik enerjisi ixrac etmək potensialı var



**Bir həftə ərzində Azərbaycanda iki mühüm əhəmiyyətli enerji obyektinin istifadəyə verilməsi ölkəmizdə bu istiqamətdə görülən işlərin və aparılan islahatların daha bir göstəricisidir. Prezident İlham Əliyev fevralın 8-də yenidən qurulan “Yaşma” qovşaq yarımstansiyasının açılışından sonra - fevralın 11-də “Qobu” Enerji Qovşağını - yükötürmə gücü 1000 meqavat olan 330/220/110 kilovoltluq “Qobu” yarımstansiyasını və 385 meqavatlıq “Qobu” Elektrik Stansiyasını işə salıb.**

Dövlət başçısının 2020-ci ilin avqustunda təməlini qoyduğu bu stansiya və yarımstansiya rekord müddətdə tikilib. Azərbaycan energetikası tarixində ilk dəfə istilik elektrik stansiyasının layihələndirilməsini xarici mütəxəssislər deyil, “Azərenerji” ASC-nin Layihə-Axtarış Energetika İnstitutu həyata keçirib və obyekti yerli şirkət tikib. Ən əsası odur ki, burada tikilən yarımstansiya Bakıda inşa olunan ilk 330 kilovoltluq yarımstansiyadır.

Prezident AZƏRTAC-a müsahibəsində də ölkəmizin elektirik enerjisi sahəsində aparılan bu və digər işlər haqqında geniş bəhs edib.

Məlum olduğu kimi, 44 günlük Vətən müharibəsi tarixi qələbəmizlə başa çatdıqdan sonra regionda yeni reallıqlar yaranmışdır. Ardınca Prezident İlham Əliyev dünyanı heyrətləndirən ikinci bir addım da ataraq işğaldan azad edilən ərazilərdə quruculuq-bərpa işlərinə başlamaq barədə göstəriş vermiş və həmin işləri öz nəzarətinə götürmüşdür.

*Ardı 6-cı səh.*

# Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1036; 2017, № 4, maddə 526, № 7, maddələr 1340, 1370, № 8, maddə 1521, № 12 (I kitab), maddə 2328; 2018, № 5, maddə 900, № 9, maddə 1825; 2019, № 1, maddə 58, № 4, maddə 618; 2020, № 5, maddə 541; 2021, № 5, maddə 435) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 3.2.1-ci yarımbəndə aşağıdakı məzmunda 8-ci abzas əlavə edilsin:

"8. ən azı 5 il jurnalist işləyən və Media Reyestrinə daxil edilmiş şəxs;";

2. 3.2.7-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 3.2.8-ci yarımbənd əlavə edilsin:

"3.2.8. ən azı 15 il jurnalist işləyən və Media Reyestrinə daxil edilmiş şəxs.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 fevral 2022-ci il*

# "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətinin dövlətə məxsus səhmlərinin özəlləşdirilməyə hazırlanması ilə bağlı sağlamlaşdırılma tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 15 iyul tarixli 570 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətinin dövlətə məxsus səhmlərinin özəlləşdirilməyə hazırlanması ilə bağlı sağlamlaşdırılma tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 15 iyul tarixli 570 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 838; 2016, № 8, maddə 1384) 3.3-cü, 3.4-cü və 4.2-ci bəndləri ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 fevral 2022-ci il*

# Baş nazirin müavini Şahin Mustafayev İranın yol və şəhərsalma naziri ilə videoformatda görüşüb

Azərbaycan Respublikası Baş nazirinin müavini, Azərbaycan-İran Dövlət Komissiyasının həmsədri Şahin Mustafayev fevralın 12-də İran İslam Respublikasının yol və şəhərsalma naziri, Dövlət Komissiyasının İran tərəfdən həmsədri Rüstəm Qasimi ilə videoformatda görüşüb. Görüşdə, həmçinin hər iki ölkənin müvafiq dövlət strukturlarının nümayəndələri iştirak ediblər.







Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı Azərbaycan ilə İran arasında müxtəlif sahələrdə, xüsusilə iqtisadiyyat, ticarət, nəqliyyat-tranzit, energetika, sənaye, kənd təsərrüfatı və digər istiqamətlərdə əlaqələrin inkişafından məmnunluq ifadə edilib.

Ötən il noyabrın 28-də Aşqabadda İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə toplantısı çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev ilə İran Prezidenti Seyid İbrahim Rəisi arasında keçirilmiş görüşün tarixi əhəmiyyəti vurğulanaraq, dövlət başçılarının bu görüşü ilə Azərbaycan-İran münasibətlərinin yeni mərhələyə qədəm qoyduğu bildirilib.

2022-ci ilin Azərbaycanla İran arasında diplomatik əlaqələrin qurulmasının 30 ilinin tamam olması ilə əlamətdar olduğu məmnunluqla qeyd edilib.

Koronavirus pandemiyasının mənfi təsirlərinə baxmayaraq, Azərbaycan-İran ticarət dövriyyəsinin 30 faiz artdığı diqqətə çatdırılıb.

Nəqliyyat-tranzit sahəsində uğurlu əməkdaşlıq xüsusi vurğulanaraq, iki ölkə arasında avtomobil daşımalarının həcminin 2021-ci ildə əhəmiyyətli dərəcədə - 70 faiz artması məmnunluqla qeyd olunub.

"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi iki ölkə arasında ticarət və nəqliyyat-tranzit sahələrində əlaqələrin inkişafı baxımından prioritet olaraq dəyərləndirilib.

Görüşdə Dövlət Komissiyasının növbəti iclasının keçirilməsi məsələsi, həmçinin Azərbaycanla İran arasında qarşılıqlı faydalı əməkdaşlığın müxtəlif sahələrdə daha da genişləndirilməsi yolları müzakirə edilib.

# İlham Əliyev erməni vandallığını və saxtakarlığını ifşa edir

*Əvvəli 1-ci səh.*

Bu, yalnız Azərbaycan xalqına qarşı olan dözümsüzlük deyil, həm də bəşəriyyətə qarşı olan cinayətdir. İndiki Ermənistanda olan Azərbaycan toponimlərinin erməni adları ilə əvəzlənməsi də həyata keçirilib.

Ermənilər bütün bəşəriyyət üçün ləkə olan bu cinayətlərini işğal dövründə Qarabağ və Şərqi Zəngəzurda da həyata keçiriblər. Xalqımıza məxsus olan bu torpaqlarda işğalçılar tərəfindən 30 ilə yaxın bir dövrdə mədəni irsimiz talanıb, dağıdılıb. Düşmən onu özününküləşdirməyə, bu məqsədlə mənşəyini dəyişdirməyə cəhd göstərib. Buna nail olmadıqda isə dağıdıb. Ermənistan Alban irsinin də erməniləşdirilməsinə çalışıb, bu məqsədlə qədim alban məbədlərinin mənsubiyyətini, kimliyini dəyişmək üçün saxtakarlıqlar edib.

İşğaldan azad olunmuş ərazilərimizdə Ermənistan tərəfindən 60-dan çox məscid, 44 məbəd, 473 tarixi abidə, saray və muzeylər dağıdılıb, eləcə də 40 min muzey eksponatı qanunsuz olaraq daşınıb. Hərbi işğal zamanı bu irsin bilərəkdən dağıdılması siyasəti həm Azərbaycan mədəniyyətinə, həm də dünya sivilizasiyasına mənəvi zərbə olub. Torpaqlarımız işğaldan azad ediləndən sonra bir daha aydın oldu ki, Ermənistan Şuşanın mədəni görünüşünün, xalqımızın tarixi irsinin, arxeoloji xüsusiyyətlərinin dəyişdirilməsinə, "arxeoloji" qazıntılar aparmaqla bu ərazilərin və tarixi abidələrin Azərbaycana məxsusluğunu göstərən əlamətlərinin aradan qaldırılması üçün məkrli bir siyasət yürüdüb.

### Məğlub ölkənin öz əməllərini pərdələmək imkanları tükənib

Ermənistanın bu hərəkətləri 1949-cu il Cenevrə Konvensiyasının, UNESCO-nun Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında 14 may 1954-cü il Konvensiyasının (1993), ona dair Birinci Protokolun (1993) və İkinci Protokolun (2000), həmçinin Ümumdünya mədəni və təbii irsinin qorunması haqqında 16 noyabr 1972-ci il Konvensiyasının (1993) kobud şəkildə pozulmasıdır.

Azərbaycan 30 il ərzində dəfələrlə UNESCO-ya müraciət edərək işğal olunmuş ərazilərimizdə məscidlərimizin və tarixi abidələrimizin işğalçı Ermənistan tərəfindən dağıdıldığını, erməniləşdirildiyini bildirib, Qarabağa UNESCO missiyasının göndərilməsi təklifi ilə çıxış edib. Xalqımızın mədəni irsinə qarşı cinayətlər törətdiyinin fərqində olan Ermənistan bu illər ərzində bütün beynəlxalq hüquq prinsiplərini, müvafiq olaraq tarixi-mədəni abidələrin qorunmasına dair öhdəlikləri pozaraq işğal dövründə UNESCO-nun həmin ərazilərə daxil olmasına imkanı verməyib. Çünki missiya həyata keçiriləcəyi təqdirdə, işğal olunmuş ərazilərdə xalqımıza aid maddi-mədəniyyət abidələrinə qarşı vandalizm halları sənədləşdiriləcək və beynəlxalq ictimaiyyətə təqdim olunacaqdı.

Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistanın qanunsuz əməlləri barədə beynəlxalq ictimaiyyət, o cümlədən də UNESCO davamlı şəkildə məlumatlandırılıb. Bu məqsədlə bir sıra nəşrlər hazırlanıb. Məsələn, 2007-ci ildə "Azərbaycana qarşı müharibə - mədəni irsə hücum" adlı kitab nəşr olunub və UNESCO-ya təqdim edilib. Bu kitabda ölkəmizin işğal edilmiş ərazilərində Ermənistan tərəfindən dağıdılmış mədəni və dini abidələrin siyahısı, onların qəsdən erməniləşdirilməsi, Alban kilsələrinin erməni kilsələri kimi təqdim edilməsi barədə geniş məlumatlar yer alıb.

Təəssüf ki, UNESCO da bu məsələdə prinsipiallıq və qətiyyət nümayiş etdirməyib. Əksinə, bu təşkilat tərəfindən Azərbaycan torpaqlarını işğaldan azad etdikdən sonra erməni təəssübkeşliyini əks etdirən iddialar səsləndirilib. Prezident İlham Əliyev 2020-ci il dekabrın 24-də Zəngilan rayonunda ermənilər tərəfindən dağıdılmış məsciddə olarkən bu barədə deyib: "Biz 30 il ərzində dəfələrlə UNESCO-ya müraciət etmişik, dəfələrlə bildirmişik ki, bizim məscidlərimiz dağıdılıb, tarixi abidələrimiz dağıdılıb, bizim tarixi abidələrimiz erməniləşdirilir, bir dəfə missiya göndərildimi? Bir dəfə bizim müraciətimizə cavab verildimi? Elə müharibə qurtaran kimi başlayıblar ki, erməni xalqının abidələri gərək qorunsun. Biz bütün abidələri qoruyuruq, bütün xalqların abidələrini qoruyuruq və dünya bunu bilir. Amma baxın, görün, məscid olub bura, UNESCO, buraya gəl, gəl gör. Avropa Şurası səssiz qalma, gəl, gör buranı! Bütün məscidlər dağıdılıb. Yaxşı, məscidi dağıtmaq olar? Məscidi dağıtmaq, deməli, cinayət deyil? Bu ədalətsizlik nə qədər davam edəcək? Bu riyakarlıq nə qədər davam edəcək? Bu ikili standartlar nə qədər davam edəcək? Bu islamofobiya nə qədər davam edəcək? Bunu dağıdan erməni olub".

Bununla belə, UNESCO-nun qarşıdan gələn missiyasının Ermənistan ərazisində Azərbaycan xalqına mənsub olan irsin ətraflı şəkildə tədqiq edilməsi, müvafiq qaydada monitorinqi və sənədləşdirilməsi baxımından əhəmiyyətli olacağı, ermənilər tərəfindən həyata keçirilmiş kultursidlə bağlı cinayətləri aşkar edəcəyi şübhə doğurmur. Ona görə də fevralın 4-də əldə edilmiş razılaşmadan irəli gələrək missiyanın həyata keçirilməsinə maneə yaratmaq üçün Ermənistan hakimiyyəti sabotaj təcrübəsini davam etdirir. Lakin məğlub ölkənin öz cinayətlərini pərdələmək, ört-basdır etmək imkanları artıq tükənib. UNESCO missiyasının obyektiv monitorinqi nəticəsində bütün dünya Azərbaycan xalqının irsinə qarşı törədilmiş əməllərdən xəbərdar olacaq. Beləliklə, beynəlxalq platformada Azərbaycan erməni vandallığını və erməni iddialarının saxta olduğunu dünyaya sübut edəcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# *Li CANŞU:* "Çin Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin gələcək fəaliyyətində Azərbaycanı dəstəkləyir"

Çin Xalq Respublikası Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Li Canşu Milli Məclisin Sədri Sahibə Qafarovaya təbrik məktubu ünvanlayıb.




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, Çin parlamentinin sədri məktubda ötən il noyabrın 28-də İspaniyanın paytaxtı Madrid şəhərində keçirilmiş Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin təsis iclası barədə fikirlərini bildirib.

Tədbirin müvəffəqiyyətlə keçirildiyini və uğurlu nəticələr əldə edildiyini vurğulayan Li Canşu Azərbaycan Respublikasının Milli Məclisi və onun Sədri Sahibə Qafarovanın Qoşulmama Hərəkatına üzv ölkələrin parlamentləri arasında əməkdaşlığın genişləndirilməsində səylərini yüksək qiymətləndirib.

Li Canşu Çinin Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin gələcək fəaliyyətində Azərbaycanı dəstəklədiyini bildirib. Ölkəsinin yeni yaradılmış quruma üzv ölkələrin parlamentləri ilə də sıx münasibətlər qurmağa hazır olduğunu deyib. O, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi çərçivəsində dünyada multilateralizmin inkişafı və sülhün bərqərar olması üçün üzv ölkələrin birgə səylərinin vacibliyini vurğulayıb.

# Azərbaycan-ABŞ iqtisadi əlaqələrini genişləndirmək üçün yeni imkanlar araşdırılır

Azərbaycan-ABŞ əlaqələri yüksələn xətlə inkişaf edir və bu münasibətlərin iqtisadi təzahürlərini müqayisə etmək üçün reallıqları diqqətlə nəzərdən keçirmək və bəzi göstəriciləri xatırlatmaq yerinə düşərdi.

Məsələn, 2021-ci ildə Azərbaycan və ABŞ arasında ticarət dövriyyəsinin həcmi 400 milyon dollardan çox olmuşdur.

Əslində bu rəqəm təkcə məlumat vermək üçün yox, həm də hər iki tərəfin daha yüksək nəticələrə nail olmaq potensialını xatırlamaq üçün göstərilir. Hər iki tərəf ticari-iqtisadi əlaqələrin gücləndirilməsində maraqlıdır, odur ki, iqtisadi əlaqələrin gücləndirilməsi üçün müxtəlif səviyyələrdə görüşlər və müzakirələr keçirilir.

Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bu yaxınlarda "Caspian Policy Center"in təşkil etdiyi "ABŞ-Xəzər Diplomatik Münasibətlərinin 30 ili" adlı vebinarda bu barədə fikirlərini bölüşərkən belə deyib: "ABŞ və Azərbaycan arasında ikitərəfli münasibətlərin mühüm komponentlərindən biri enerji təhlükəsizliyi məsələsidir. Vaşinqtonun dəstəyi və Amerika şirkətlərinin fəal iştirakı ilə Azərbaycan neft və qaz ehtiyatlarını birbaşa və müstəqil şəkildə beynəlxalq bazarlara çıxara bilib".

H.Hacıyev Azərbaycanın Cənubi Qafqaz regionunda ABŞ-dan ən böyük investisiyalar alan ölkələrdən biri olduğunu bildirib: "Bu investisiyaların ümumi məbləği təxminən 19 milyard ABŞ dolları təşkil edib. Azərbaycanda 300-ə yaxın Amerika şirkəti fəaliyyət göstərir. Azərbaycan da ABŞ iqtisadiyyatına sərmayə qoyur. Xüsusilə qeyri-neft sektorunda ikitərəfli iqtisadi əlaqələrin stimullaşdırılması və möhkəmləndirilməsi üçün daha çox iş görülməlidir".

Qeyd edək ki, ABŞ-la iqtisadi əlaqələrin inkişafı məsələləri digər müstəvilərdə də müzakirə edilir. İqtisadiyyat naziri Mikayıl Cabbarovun ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi vəzifəsini icra edən Filip Rikerlə görüşündə ABŞ-la iqtisadi, ticarət, sənaye və digər sahələrdə tərəfdaşlığın inkişaf etdiyi, ikitərəfli iqtisadi əməkdaşlığın gücləndirilməsi üçün müqavilə-hüquq bazasının möhkəmləndirilməsi istiqamətində işlərin görüldüyü qeyd olunub.

Ölkəmizdə bütün istiqamətlərdə həyata keçirilən dərin islahatlar, sosial-iqtisadi inkişafa dair milli prioritetlər və qarşıya qoyulan hədəflərin geniş spektri, "yaşıl iqtisadiyyat" və bərpaolunan enerji layihələrinə önəm verilməsi Azərbaycan-ABŞ münasibətləri üçün yeni bir səviyyədə geniş şərait yaradır. Bu sırada Azərbaycanda rəqəmsal iqtisadiyyatın inkişafı, kiçik və orta biznesin iqtisadiyyatda rolunun artırılması, nəqliyyat-tranzit potensialının gücləndirilməsi istiqamətində həyata keçirilən sistemli tədbirlər və İnvestisiya Holdinqinin yaradılması iki dövlətin qarşılıqlı iqtisadi əlaqələrinin yenidən qurulmasına imkan verir. ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi vəzifəsini icra edən Filip Riker regionda dayanıqlı sülhün və regional inkişafın önəmini vurğulamış, ABŞ şirkətlərinin işğaldan azad edilmiş ərazilərimizin bərpasında, xüsusilə minalardan təmizləmə işlərində iştirak etməkdə maraqlı olduğunu bildirmişdir.

Biz bütün səviyyələrdə keçirilən görüşlərdə ABŞ-la iqtisadiyyatın müxtəlif sahələrində tərəfdaşlığın, iqtisadi-ticarət, investisiya əməkdaşlığının genişləndirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlərin müzakirə edilməsinin şahidi oluruq.

Qeyd edək ki, belə görüşlərdən biri də bu il fevralın 11-də iki tərəfin iştirakı ilə Azərbaycanın ən nüfuzlu beyin mərkəzlərindən birində - İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində (İİTKM) Amerika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasındakı səfirliyinin nümayəndələri ilə keçirilmişdir. Bu tədbirdə İİTKM-in Layihələr departamentinin rəhbəri Vüsalə Cəfərova rəqəmsal platforma layihələri, həyata keçirilən iqtisadi islahatlar, biznes mühiti, işğaldan azad edilmiş ərazilərin bərpasına xarici investisiyaların cəlb edilməsi barədə qonaqlara ətraflı məlumat vermişdir. Eyni zamanda, onların diqqətinə növbəti illər üzrə müəyyən olunmuş prioritet sahələr, inkişaf hədəfləri, iqtisadi diversifikasiya və inklüziv artım məqsədləri, regional tranzitin inkişafı və potensial investisiya sahələri barədə məlumatlar çatdırılmışdır.

ABŞ-ın ölkəmizdəki səfirliyinin iqtisadi məsələlər üzrə nümayəndəsi cənab Dryu Lebkueker Azərbaycan və ABŞ arasında diplomatik münasibətlərin siyasi, iqtisadi və mədəni sahələrdə daim inkişafda olduğunu və pandemiyanın təsirlərinə baxmayaraq, əldə edilmiş iqtisadi artımı yüksək qiymətləndirdiyini bildirmişdir. Səfirlik belə hesab edir ki, iqtisadi və ticarət əlaqələrinin genişləndirilməsi məqsədilə birgə tədqiqatların həyata keçirilməsi üçün İİTKM və ABŞ-ın müvafiq beyin mərkəzləri arasında əlaqələrin qurulmasına lazım olan dəstəyin verilməsinə hazırdır.

Görüşdə İİTKM-in Strateji planlama departamentinin rəhbəri Ayaz Müseyibov və səfirliyin iqtisadi müşaviri Yusif Abasovun iştirakı ilə ölkədə maliyyə sektoru, xarici ticarət, rəqabət siyasəti və regionların inkişafına birbaşa xarici investisiyaların cəlbi sahəsində ölkənin inkişaf prioritetləri üzrə fikir mübadiləsi aparılıb. Azərbaycan-ABŞ münasibətlərinin inkişafına təkan verə bilən beyin mərkəzlərinin bu işə qoşulması təqdirəlayiqdir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Ombudsman Aparatının nümayəndələri Hərbi Hava Qüvvələrinin hərbi hissəsində olublar

Müdafiə Nazirliyi ilə İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatı arasında 2022-ci il üçün birgə tədbirlər planına əsasən Ombudsman Aparatının nümayəndələri Hərbi Hava Qüvvələrinin "N" hərbi hissəsini ziyarət ediblər.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qonaqlar hərbi qulluqçuların məişət şəraiti ilə yaxından tanış olub, yataqxana, əşya və ərzaq anbarları, yeməkxana, eləcə də digər inzibati otaqlara baxış keçiriblər. Ombudsman Aparatının nümayəndələri hərbi hissədə asudə vaxtın səmərəli keçirilməsi üçün yaradılan şəraiti, şəxsi heyətlə vətənpərvərlik və təlim-tərbiyə sahəsində aparılan işi müsbət qiymətləndiriblər.

Sonda hərbi qulluqçuların hüquqlarının müdafiəsi, insan hüquqlarının qorunması vəziyyətinin öyrənilməsi və digər mövzularda fikir mübadiləsi aparılıb.

# Komandoların peşəkarlığı artırılır

Quru Qoşunlarının döyüş hazırlığı planına əsasən, Əməliyyat (Komando) hərbi hissələrinin şəxsi heyəti ilə təlim məşqləri keçirilir.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimin planına əsasən, komandolara təxribat hazırlığında olan şərti düşmən qruplaşmasının zərərsizləşdirilməsi tapşırığı verilib.

Silahlanmaya yeni qəbul olunan tırtıllı və xizəkli texnikalar vasitəsilə mobil çevik qruplar çətin keçilən ərazilərdə yerdəyişmə icra edərək dövlət sərhədini pozan qanunsuz silahlı birləşmələrin diversiya-kəşfiyyat qruplarının aşkarlanması, mühasirəyə alınaraq zərərsizləşdirilməsi üzrə taktiki fəaliyyətləri yerinə yetiriblər. Keçirilən məşqlərdə əsas məqsəd Vətən müharibəsində əldə olunan döyüş təcrübəsi nəzərə alınmaqla komandoların xüsusi texnikalarla hərəkəti, xizəksürmə vərdişlərinin təkmilləşdirilməsi, eləcə də relyefə və hava şəraitinə uyğun maskalanma tədbirlərinin bacarıqla tətbiq edilməsidir.

Əvvəli 1-ci səh.

# Cənubi Qafqazın ən etibarlı tərəfdaşı

## İlham Əliyev yeni hədəfləri ilə dünyaya Azərbaycanın müasir vizyonunu təqdim edir



### Artan güc, yüksələn nüfuz, genişlənən tərəfdaşlıq

Postmüharibə dövrü artıq başa çatıb. Qalib Azərbaycan regionda gedən prosesləri, sadəcə, müşahidə etmir, həm də regionun gündəliyini diktə edir.

2022-ci ili postböhran dövrü adlandıran İlham Əliyev müharibədən sonrakı dövr barədə danışarkən ilk növbədə Azərbaycanın artan beynəlxalq nüfuzunu qiymətləndirdi. Əgər bu gün Azərbaycan beynəlxalq miqyasda söz sahibi kimi tanınırsa, bunu yaradan İlham Əliyevin tam müstəqil siyasət yürütməsi, qətiyyəti və prinsipiallığıdır. Bu qətiyyət həm İlham Əliyevə, həm də Azərbaycana başucalığı gətirib.

Bu siyasət Azərbaycanı ən etibarlı tərəfdaşa çevirib. Bunun nəticəsidir ki, Azərbaycan BMT-dən sonra dünyada ikinci böyük təşkilat olan Qoşulmama Hərəkatına sədrlik edir. Bunu dəyərləndirən dövlət başçısı da deyir: "Bu gün regional gündəlikdə duran məsələlər çox cəhətdən bizim fəaliyyətimizlə bağlıdır və bizim təşəbbüslərimizin çoxu, tərəfdaşlarımızın təşəbbüslərinin çoxu iştirakımız, müsbət münasibətimiz olduğu halda reallaşır. Qoşulmama Hərəkatına gəlincə, əlbəttə bu, Azərbaycan üçün yeni roldur. Xüsusən ona görə ki, Azərbaycan bu təşkilata daxil olan son ölkələrdən biridir. Yəni, ölkəmiz yeni üzvdür. Lakin dərhal bütün ölkələrin etimadını və hörmətini qazana bilib. Buna görə də ölkələr iki dəfə Azərbaycanın lehinə səs veriblər".

Bu qurumun sədri kimi İlham Əliyev mühüm addımlar atıb. Təşkilatın nüfuzunun daha da yüksəlməsi istiqamətində qərarlar qəbul olunub. Xüsusən də qlobal pandemiya vaxtı təşkilatın gördüyü işlər, beynəlxalq təşəbbüslər, hərəkatın sammiti, BMT-nin Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi təşəbbüsü, BMT-nin İnsan Haqları Şurasından alınan dəstək, Baş Assambleyada planlaşdırılmış, lakin COVID-19 səbəbindən təxirə salınmış müzakirə - bütün bunlar təşkilatın nüfuzunu artırıb.

İlham Əliyev qətiyyətlə vurğulayır ki, Azərbaycan beynəlxalq aləmin məsuliyyətli üzvü və Qoşulmama Hərəkatının sədri kimi bundan sonra da beynəlxalq hüququn aliliyini müdafiə edəcək. Azərbaycan dünya təsisatlarının - BMT və İkinci Dünya müharibəsindən sonra yaradılmış digər təsisatların fəaliyyətində fəal iştirak edəcək. Çünki Azərbaycan artıq Qarabağ problemi kimi ağır yükü çiynindən atıb və yeni dünya düzənində də təşəbbüs göstərən ölkələrdən biri olacaq: "Çünki de-fakto bu, artıq baş verib və biz bu de-fakto vəziyyətə tam hazırıq, bütün daxili resurslarla hazırıq. Həm mənəvi, həm xalqımızın səfərbərliyi, xalq-iqtidar birliyi, iqtisadi müstəqillik, enerji müstəqilliyimiz, siyasi gündəliyimiz və Qarabağ Zəfərindən sonra xüsusilə artan imkanlarımız - biz tam hazırıq, istənilən varianta hazırıq. Əgər dünya ənənəvi yollarla inkişaf etməyə davam etsə, - halbuki, mən buna inanmıram, - hazırıq. Əgər dünya, beynəlxalq arxitektura tamamilə çöksə, biz buna hazırıq. Yəni, biz komanda kimiyik. Hər an hazır olmalıyıq ki, özümüz öz gücümüzə əsaslanaraq istənilən vəzifəni istənilən yerdə yerinə yetirək və bayrağımızı həmişə uca tutaq".

Prezidentin həm gənclərlə keçirdiyi görüşdə, həm də Fransanın Avropa İttifaqına sədrliyi qismində Prezident Emmanuel Makronun, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə videoformatda baş tutan 4 tərəfli müzakirələrdə səsləndirdiyi qətiyyətli fikirlər bir daha onu deməyə əsas verir ki, artıq heç kim Azərbaycanla təhdid dili ilə danışa bilməz. Eyni zamanda Azərbaycan özünə qarşı istənilən ədalətsizliyə susqun qalmır və düzgünlük tələb edir.

Budəfəki 4 tərəfli görüş həm də İlham Əliyevin növbəti diplomatik uğuru kimi qiymətləndirilməlidir. Çünki bu görüş fonunda Şarl Mişel və Emmanuel Makron birgə bəyanat imzalayıblar. Sənəddə Minsk qrupuna istinad yoxdur. Moskva, Soçi və Brüsseldə keçirilmiş görüşlərin mahiyyətinə uyğun olaraq Minsk qrupuna istinad yer almayıb. Eyni zamanda bəyanatda Dağlıq Qarabağ münaqişəsi və hətta Qarabağ kimi ifadə yoxdur. Əlbəttə ki, bu, Qarabağ mövzusunun tamamilə gündəlikdən çıxmasının növbəti nüminəsidir. Fransa ATƏT-in Minsk qrupu həmsədr olaraq bu reallığı qəbul edir. Fransa bu görüşdə həmsədr kimi deyil, Avropa İttifaqına sədrliyi qəbul etmiş ölkə kimi iştirak edir.

Beləliklə, İlham Əliyevin yürütdüyü müstəqil siyasət, səsləndirdiyi cəsarətli fikirlər, sərt xəbərdarlıqlar bir daha xalqda əminlik yaradır ki, Azərbaycan dövləti bundan sonra də öz xilaskar liderinin rəhbərliyi ilə bütün sahələrdə qarşıya qoyulmuş vəzifələri uğurla həyata keçirəcək. Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən İlham Əliyev həyata keçirdiyi mütərəqqi islahatlar, yeni inkişaf konsepsiyası və ümumilikdə uğurlu missiyası ilə dünyaya ölkəmizin müasir vizyonunu təqdim edir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

---

# İrəvan problemdən çıxış yolu tapa bilmir

## Müharibədən sonra Ermənistanda miqrasiya daha da artıb

Hazırda Ermənistan üçün hələ də ən aktual problemlərdən biri əhalisinin xarici ölkələrə köçünün davam etməsidir. Miqrasiya prosesinin indiki templə davam edəcəyi təqdirdə Ermənistanın əhalisiz ölkəyə çevriləcəyi özlərinin sosioloqları tərəfindən də açıq etiraf olunur. Belə hesab edilir ki, real şəraitdə Ermənistanın ümumi təhlükəsizliyinə xələl gətirən əsas hallardan biri məhz əhalinin ölkəni tərk etməsidir.

Mövcud iqtidar bu cür sosial-iqtisadi şərait fonunda miqrasiyanın qarşısının alınmasında artıq aciz olduğunu nümayiş etdirir. Ermənistanda belə bir fikir hakimdir ki, Nikol Paşinyan hökuməti hakimiyyətdə olduğu müddət ərzində digər çətinliklər kimi, miqrasiya problemi də öz həllini tapmayacaq. Bildirilir ki, əvvəlki illərdə də miqrasiya böhranı müşahidə olunub, amma İkinci Qarabağ müharibəsindən sonra ölkəni birdəfəlik tərk edən sadə ermənilərin sayı artıb.

"Joxovurd" nəşri yazır ki, rəsmi məlumatlara görə, ötən il 73 571 vətəndaş ölkəni tərk edib və geri qayıtmayıb. Ümumilikdə ölkədən 762 min 792 nəfər gedib, onlardan 689 min 221-i geri qayıdıb. Qeyd edək ki, söhbət Ermənistan vətəndaşlarından gedir. Eyni zamanda, təkcə ötən ilin birinci yarısında 22 minə yaxın erməni Rusiya vətəndaşlığını qəbul edib. Bu, son 4 ilin mütləq rekordudur.

Məqalə müəllifi rəsmi statistikiya istinad edərək yazır ki, ötən il 161 minə yaxın Ermənistan vətəndaşı "Green card" üçün müraciət edib. İndi isə gəlin inqilabdan əvvəl və sonrakı dövrü müqayisə edək. Rəsmi məlumata görə, 2017-ci ildə 36,2 min insan Ermənistanı tərk edərək geri qayıtmayıb. Ötən il bu rəqəm 73,5 mindən çox olub. Bu arada Ermənistanın hakim "Mülki müqavilə" partiyasından olan deputat Armen Xaçatryan deyib ki, 2020-ci ilin 44 günlük müharibəsinin şəraitini araşdırmaq üçün istintaq komissiyası artıq yaradılıb. O bildirib ki, komissiyaya yalnız Ermənistan parlamentinin Müdafiə və Təhlükəsizlik Daimi Komissiyasının üzvləri daxildir: "Komissiya 11 deputatdan ibarətdir, lakin deputatlardan biri müvafiq məxfilik rejiminə icazə almadığı üçün hazırda 10 üzvün tam səlahiyyəti var. Müvafiq icazəni aldıqdan sonra o da komissiyaya cəlb olunacaq. Söhbət Artur Kazinyandan ("Ermənistan" blokundan olan deputat - red.) gedir. Ümid edirik ki, o, aidiyyəti qurumlara müraciət edəcək, icazə alacaq və komissiyanın işində tam iştirak edəcək. Kazinyan tərəfindən bu icazənin alınması və ya alınmaması komissiyanın işinə mane olmayacaq. Ancaq Müdafiə və Təhlükəsizlik Daimi Komissiyasının üzvü olduğu üçün onu alsa, yaxşı olardı".

Xaçatryan əlavə edib ki, komissiyanın işi əsasən məxfi xarakter daşıyacaq, məlumatların əhəmiyyətli hissəsi dövlət və rəsmi sirrdir. Hakimiyyətin niyə parlamentdənkənar qüvvələrin nümayəndələrini komissiyaya daxil etmədiyinə gəlincə, Xaçatryan bildirib ki, hakimiyyət heç bir qərar verməyib, çünki müdafiə və təhlükəsizlik üzrə istintaq komissiyasının işi konstitusiya qanunu ilə tənzimlənir: "Hazırda parlamentdənkənar qüvvələrin komissiyanın işində iştirak formatı üzərində düşünülür, lakin bu, o demək deyil ki, onlar istintaq komissiyasının səlahiyyətlərini yerinə yetirəcəklər. İştirakın formatı məsələsi iş proseduru təsdiq edildikdən sonra öz həllini tapacaq".

Belə vəziyyət isə həqiqətən Ermənistanın sürətlə məhvə yaxınlaşdığını, ölkədə qarşıdurmanın ən yüksək səviyyədə olduğunu göstərir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***







# Gənclər siyasəti dövlətimiz üçün hər zaman prioritet olub

Əvvəli 1-ci səh.

Bir tərəfdən qonşu ölkənin azğınlığı, digər tərəfdən də o illərdə Azərbaycanın taleyinə görə məsuliyyət daşıyan təsadüfi insanların xəyanəti ucbatından torpaqlarımızın 20 faizi itirilmişdi. Belə insanlar milli həmrəyliyə nail olaraq ölkəni düşdüyü vəziyyətdən çıxarmağa çalışmaq əvəzinə, hakimiyyət uğrunda bir-biri ilə didişirdilər. Ölkə vətəndaş müharibəsinin bir addımlığına gəlib çıxmışdı. Xalqımız məğlub, çarəsiz durumda vəziyyətdən çıxış yolu arayırdı. Beynəlxalq aləmin, vasitəçilərin tezliklə Qarabağ məsələsini yoluna qoyacaqlarına, ədaləti bərpa edəcəklərinə böyük ümidlər olsa da, bunlar özünü doğrultmurdu. Azərbaycanın ətrafındakı informasiya blokadası getdikcə daralırdı. Müstəqilliyinin ilk illərində Azərbaycan reallıqları dünya ictimaiyyəti üçün aydın şəkildə bəlli deyildi. Ölkəmizə qarşı artıq o vaxt və bugünə qədər fəaliyyət göstərən erməni lobbi təşkilatları Azərbaycan haqqında yalan, təhrif edilmiş məlumatlar ötürürdülər. Uydurulmuş saxta miflərlə həqiqətləri təhrif edirdilər. Dünyada səsimiz-sözümüz eşidilmirdi.

Belə ağır vaxtlarda ölkədəki bəzi siyasi qüvvələr milli mənafelər naminə deyil, məhz hakimiyyət uğrunda mübarizə aparanlar Azərbaycan gəncliyindən öz məqsədləri üçün alət kimi istifadə etməyə çalışırdılar. Gəncliyi intellektual, sağlam düşüncəli, reallıqlara aydın baxışı olan toplum kimi yox, qaragüruh kimi görmək istəyirdilər. Onları universitet auditoriyalarında, ziddiyyətləri diskussiya məcrasına yönəldən faydalı müzakirələrdə, biznesdə, işdə-gücdə deyil, məhz küçə və meydanlarda şüarlar qışqıran yerdə təsəvvür etməyə can atırdılar. Gənclərin gücündən, enerjisindən, səmimiyyətindən öz mənfur niyyətlərini reallaşdırmaq üçün faydalanmağa meyil göstərirdilər.

O dövrdə Ermənistanın işğal siyasəti nəticəsində yurdundan didərgin düşmüş yüz minlərlə soydaşımız çadırlarda, vaqonlarda, heç bir kommunal şəraiti olmayan qeyri-yaşayış sahələrində yaşamaq məcburiyyətində qalmışdı. Ölkəmizdə nizami ordu yaradılmamışdı. Elə buna görə idi ki, Birinci Qarabağ müharibəsində məğlub olduq. Sovet İttifaqı dağılandan sonra Azərbaycanda bazar iqtisadiyyatı prinsipləri də hələ tam bərqərar olmamışdı. Sahibkarlıq çox aşağı səviyyədə idi. Dövlət qurumları yeni idarəetmə üsuluna yiyələnə bilməmişdilər. İqtisadi tənəzzül hər yerdə özünü büruzə verirdi. Cəmiyyətdəki sosial-mənəvi böhran xüsusilə gəncliyi sıxırdı. Onlar iş tapıb çalışa, öz həyatlarını arzuladıqları kimi qura bilmirdilər.

Belə ümidsiz vəziyyət Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışına qədər davam etdi. Bu böyük dövlət xadiminin dövlətçilik sükanı arxasına keçərək Azərbaycanın gələcəyinə görə məsuliyyəti üzərinə götürməsini arzulayan, buna çağırış edən milyonlarla vətəndaşımızın əhəmiyyətli qismi də məhz gənclərdən ibarət idi. Ümummilli Lider də gənclərin böyük potensialına inanırdı. Hər zaman olduğu kimi, böyük uzaqgörənlik göstərərək məhz gənclərə üz tutdu. Onları müzakirələrə dəvət etdi. Öz tövsiyələrini verdi. Gəncləri gələcək inkişaf üçün təşkilatlandırmaq və hazırlamaq üçün əməli-praktiki addımlar atıldı. Gəncliyin o dövrün çağırışlarına uyğun inkişafı, öz potensialını reallaşdıra bilməsi üçün əlverişli mühit yaratdı.

Ulu Öndərin qətiyyəti sayəsində 1994-cü ildə "Əsrin müqaviləsi" imzalandı. 1995-ci ildə müstəqil Azərbaycan dövlətinin ilk Konstitusiyasının qəbulu ilə ölkəmizdə hüquqi dövlət quruculuğu, demokratik inkişaf prosesləri daha geniş vüsət aldı. Azərbaycan gəncləri də, təbii ki, bu prosesin əsas hərəkətverici qüvvələrindən biri idi. O zaman hələ ARDNŞ-nin birinci vitse-prezidenti, Milli Məclisin deputatı və Azərbaycanın Avropa Şurasındakı nümayəndə heyətinin rəhbəri, Milli Olimpiya Komitəsinin prezidenti olan cənab İlham Əliyevin ölkəmizin ictimai-siyasi həyatında fəal iştirakı gənclərimizin aktivliyini daha da gücləndirdi. Azərbaycan gəncləri cənab İlham Əliyevi özünə lider seçdi. 2003-cü ildə xalqımızın yekdil dəstəyi ilə Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyev son onilliklərdə ölkəmizə, xalqımıza qazandırdığı nailiyyətlərlə gəncliyimizin də ümidlərini doğrultdu.

### Qürur mənbəyi

Azərbaycan Prezidenti Ulu Öndərin gənclər siyasətini uğurla davam etdirərək ölkəmizdə yeni bir nəsil yetişdirdi. Təlqin etdiyi vətənpərvərlik tərbiyəsi, dövlətimizə, milli dəyərlərimizə bağlılığı, Azərbaycana sevgisi ilə gəncliyimiz üçün mükəmməl bir örnək formalaşdırdı. Qətiyyəti, milli maraqlarımızın müdafiəsindəki mətinliyi, müdrikliyi, uzaqgörənliyi ilə şəxsi nümunə yaratdı. Azərbaycan gəncliyini sarsılmaz güc sahibinə çevirdi. Prezident İlham Əliyev bu gəncliyin gücü ilə torpaqlarımızı düşməndən təmizlədi. Üçrəngli bayrağımızı azad yurdlarımızda onların güclü əlləri ilə ucaltdı. Vətən müharibəsinin ilk günlərindən Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarələrinə axışıb könüllü cəbhəyə yollanmaq istəyən gənclərimiz Azərbaycan Prezidentinin yetişdirdiyi bu aparıcı təbəqənin nümayəndələri idi. Sıldırım qayalardan kəndirlə dırmanaraq yüngül silahlarla düşmənin tankının, topunun, raket komplekslərinin üzərinə atılan, Şuşanı əlbəyaxa döyüşlə azad edən igid döyüşçülərimiz də bu vətənpərvər, sarsılmaz gəncliyin təmsilçiləridir.

Gənclərlə görüşü zamanı Azərbaycan Prezidenti bu qəhrəmanlıq əzmini xüsusi vurğuladı. Vətən müharibəsində gənclərin həlledici rolundan danışdı. Vətən müharibəsində iştirak etmiş hər bir igid gəncinə Azərbaycan xalqının minnətdar olduğunu bildirdi. "Vətən uğrunda, torpaq uğrunda qabağa gedənlərin əksəriyyəti gənclər idi. Bu, hər birimiz üçün qürur mənbəyidir. Çünki elə bir gənc nəsil yetişdi ki, hətta Qarabağı görməyən, o acı tarixi görməyən gənclər Qarabağ uğrunda, Vətən uğrunda, milli ləyaqət uğrunda ölümə gedirdilər və şəhid oldular, qazi oldular və müzəffər Ordumuzun şöhrətini yüksəklərə qaldırdılar. Əgər bu siyasət olmasaydı, əgər gənclər vətənpərvərlik ruhunda tərbiyə almasaydılar, bilmək olmazdı müharibənin nəticələri necə ola bilərdi".

Prezident İlham Əliyev qeyd etdi ki, bizim hərbçilərimiz mümkün olmayanı da reallığa çevirdilər. Milli ruh, milli ləyaqət və vətənpərvərlik hissi onları irəliyə apardı. Belə xalqla heç kim mübarizə apara bilməz. "Müharibənin bir çox dərsləri var - həm bizim üçün, həm bütün dünya üçün, region üçün. Onlardan biri də odur ki, azərbaycanlılarla mübarizə aparmaq, müharibə aparmaq çox baha başa gələ bilər".

Bütün bunlar, təbii ki, Azərbaycan gəncliyinə böyük inam hissi ilə səsləndirilmiş kəlmələrdir. Gəncliyimiz bu inamı real nümunələrlə hər zaman doğruldub.

### Tarixin ən güclü Azərbaycanının vətəndaşları

Azərbaycan Prezidentinin yetirdiyi gənclik ölkə xaricində də milli maraqlarımızın müdafiəsindədir. Gənclərimiz malik olduqları xarici dil bilikləri, yüksək intellektual qabiliyyətləri, milli-mənəvi dəyərlərimizə bağlılıqları, tarixi həqiqətlərə dərindən bələdlikləri ilə erməni yalanlarını ifşa edirlər. Son illərdə beynəlxalq ictimaiyyətin Azərbaycan həqiqətləri barədə daha geniş məlumata malik olmasında, ölkəmizin informasiya savaşında da Ermənistan üzərində böyük üstünlüklər qazanmasında gəncliyimizin xidmətləri böyükdür. Vətən müharibəsi dövründə gənclərimiz sosial şəbəkələrdə çox fəal oldular. Bu informasiya müharibəsinə təkcə Azərbaycan vətəndaşları deyil, dünya azərbaycanlıları da fəal qoşuldular. Birgə səylər nəticəsində Azərbaycan informasiya məkanında da üstünlük əldə etdi. Beləliklə, ölkəmiz informasiya müharibəsində də erməniləri darmadağın etdi.

Əhali sayı sürətlə artan ölkəmizdə bu gün gənclik cəmiyyətin əsas hissəsidir. Gənclərimiz ölkənin ictimai-siyasi həyatında fəal iştirak edir. Bunun üçün hər cür şərait yaradılıb. Dövlət rəhbərimiz gənclərə böyük etimad göstərir. Onları yüksək dövlət vəzifələrində irəli çəkir. Gənclərimizin təşəbbüsləri, faydalı əməyi hər yerdə görünməkdədir. Gənclərlə görüşü zamanı Azərbaycan Prezidenti vurğuladı ki, indiki gənclər üçün imkanlar daha genişdir və onlar bu imkanlardan istifadə etməlidirlər. Bu gün Azərbaycan inamla gələcəyə doğru irəliləyir. Ölkəmizin qarşıya qoyduğu bir çox əsas vəzifələr öz həllini tapıb. Azərbaycan gəncləri azad ölkədə yaşayırlar. Cəmiyyətimizdəki ictimai-siyasi sabitliyin, davamlı inkişaf mühitinin faydalarını hiss edirlər. Tarixin ən güclü Azərbaycanının vətəndaşları kimi özgüvən içində yaşayır. Eyni zamanda milli-mənəvi dəyərlərimizə sadiqlik göstərmək Prezident İlham Əliyevin Azərbaycan gəncliyinə əsas tövsiyələrindəndir. Çünki müasir Azərbaycan dövləti məhz milli dəyərlər üzərində qurulub. Milli dəyərləri qoruyub saxladıqca, dövlətimiz daha da qüdrətli olacaq, xalqımız əbədi azad, müstəqil xalq kimi yaşayacaq.

Xalqımız hər zaman dünyaya açıq olmuş, mütərəqqi yenilikləri tez bir zamanda mənimsəməyi bacarmış, eyni zamanda öz mənəvi kodeksini də həmişə hər şeydən üstün tutmuşdur. Azərbaycan xalqı əsrlər boyu öz milli ideologiyasını, əzəli xüsusiyyətlərini nəsillərdən-nəsillərə ötürmüşdür. Özünü assimilyasiyadan qorumuşdur. Bu dəyərlərin gələcəkdə də qorunub saxlanması bugünkü gəncliyimizin ali missiyasıdır.

Vətənə bağlılıq, sevgi, Azərbaycanın dövlət maraqlarını hər şeydən üstün tutmaq hər bir gəncin borcudur. Gənclikdən öz bədxah məqsədləri üçün istifadə etmək istəyən qüvvələr, əfsuslar olsun ki, bu gün də var. Beləløri, demək olar ki, dünyanın hər yerində öz ziyanlı fəaliyyətlərini davam etdirirlər. Qloballaşma pərdəsi altında hələ yolun başında olan gəncləri təsir altına almaq, bununla ölkələrin, cəmiyyətlərin gələcəyini istədikləri kimi yönəltməyə can atırlar. Bu məqsədə böyük məbləğdə vəsaitlər xərclənir. Hissiz, duyğusuz, tarixi köklərindən qopmuş gəncliyin formalaşdırılması, onların milli düşüncədən uzaqlaşdırılması bu insanların əsas məramıdır.

Son onilliklərdə xüsusilə böyük aktuallıq kəsb edən bu məsələyə Azərbaycanda da həssas münasibət göstərilməlidir. Gəncliyimizin bu cür ziyanlı təsirlərdən qorunması çox vacibdir. Ana dilimiz bu cür təsirlərə qarşı sarsılmaz sipərdir. Çünki xalqın dili onun ruhudur. Dilimizə nə qədər böyük sevgi göstərsək, gəncliyimizi ana dilimizə hörmət ruhunda tərbiyə etsək, ruhumuz da bir o qədər yüksək və sağlam qalacaq.

### Yeni nəsil, yeni çağırışlar

Bu gün Azərbaycan dövləti işğaldan azad edilmiş yurdlarımızda geniş bərpa-abadlıq tədbirləri həyata keçirir. Ermənilərin təxminən 30 il ərzində dağıdıb viran qoyduqları yurd yerlərimiz yenidən dirçəlir. İnkişaf axarına qovuşur. Bu prosesdə Azərbaycan gəncliyi də yaxından iştirak edir. Bütün şəhərlərimiz dirçəldikcə yeni yaranan iş yerlərində, ilk növbədə, müasir biliklərə malik olan gənclərin, azad edilmiş rayonlardan olan gənclərimizin çalışması dövlət rəhbərliyinin əsas tapşırıqlarındandır.

Azərbaycan dövləti hər zaman öz vətəndaşlarının, o cümlədən gənclərinin yanındadır. Xüsusilə dövlətin dəstəyinə ehtiyacı olan əhali qrupları üçün genişmiqyaslı sosial yardım paketləri həyata keçirilir. Fiziki əngəli olan vətəndaşlarımızın cəmiyyət həyatına adaptasiyası üçün tədbirlər görülür. Onlar müvafiq işlərə cəlb edilir. Əngəlli gənclərimizin iştirakı ilə mədəniyyət, incəsənət layihələri reallaşdırılır. Şəhid ailələri və qazilərimiz üçün də genişmiqyaslı proqramlar icra edilir.

IV Sənaye İnqilabının çağırışlarını nəzərə alaraq Azərbaycan gənc nəslin yeni bir gələcəyə hazırlanması üçün addımlar atır. Gəncliyimiz IV Sənaye İnqilabının həyatımıza gətirdiyi yenilikləri sürətlə mənimsəyir və real həyatda onları tətbiq edir. Azərbaycan Prezidenti IV Sənaye İnqilabı nəticəsində yarana biləcək yeni peşələrə hazırlığı da hər zaman tövsiyə edir. Çünki dünya dəyişir. 25 il əvvəlki dünya ilə indiki dünya arasında böyük fərq var. Ənənəvi peşələrin çoxu bir neçə ildən sonra olmayacaq. Bunun əvəzinə yeni peşələr ortaya çıxacaq. Azərbaycan gənclərinin xarici ölkələrin nüfuzlu universitetlərində təhsil almasına şərait yaradan proqramın davam etdirilməsinə qərar verilməsi də cəmiyyətimizin gələcəyə hazırlanması məqsədinə xidmət göstərir.

Bu gün ölkədə gənclik ilə bağlı çox xoş tendensiyalar müşahidə edilir. Azərbaycan gəncliyi sosiallaşır, ölkə və cəmiyyət həyatına daxil olan mütərəqqi yeniliklərin əsas mərkəzi qüvvəsi rolunda çıxış edir. Azərbaycanda könüllülər hərəkatı genişlənir. Bu hərəkat gənclərin təşkilatlanması və onların əmək potensialının artırılması nöqteyi-nəzərindən böyük fayda verir. Azərbaycan gənclərinin idmana, sağlam həyat tərzinə marağı artır. Bütün bunlar isə mənəvi və fiziki baxımdan sağlam gənclik deməkdir.

Milli dövlətçilik düşüncəmizdə gəncliyə xitab çox önəmli məsələdir. Azərbaycan gəncliyi tarix boyu ona olan ümidləri doğruldub. Üzərinə düşən vəzifələri layiqincə yerinə yetirib. Bugünkü gəncliyimiz qarşısında da böyük bir vəzifə var. Azərbaycan Prezidenti İlham Əliyevin tarixdəki ən qüdrətli mərhələsinə gətirib çıxardığı müstəqil dövlətimizin daha böyük nailiyyətlər qazanması üçün çalışmaq, onu böyük strateji hədəflərinə yetirmək gəncliyimizin ali missiyasıdır.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Hər bir azərbaycanlı ruhunu Qarabağdan, Şuşadan alır




## Fazil MUSTAFA: “İlham Əliyev Qarabağla birgə itirilmiş inamımızı da özümüzə qaytardı”

**Qarabağ söhbətləri**

**...Qatar uzun bir fit verib irəli dartınmış və yorğa at kimi yırğalana-yırğalana Ağdamdan uzaqlaşmağa başlamışdı. Və o, Qarabağın bu qədim şəhərinə gələndə olduğu kimi, yenidən təkərlərin dəmir relslərə dəyərək çıxardığı qəribə və ritmik taqqaturuq səsinin ahəngi altında pəncərədən bir-biri ilə ötüşən əsrarəngiz təbiət tablolarını seyr etmişdi. Ucu-bucağı görünməyən çəmənliklər, yamyaşıl meşələr, uzaqlardan gözə dəyən bəyaz çalmalı dağlar, nəhəng qayaların bağrından qoparaq kükrəyə-kükrəyə axan çaylar arxada qaldıqca qeyri-ixtiyari ürəyinə ağır bir nisgil çökmüş, haradansa nagüman bir sual peyda olmuşdu beynində: “İlahi, görəsən bir daha bu yerlərə gələ biləcəyəmmi?!” Elə o andaca bu cür dözülməz bir sınaqla üz-üzə gəlmək fikrinin belə necə dəhşətli olmasından əti ürpənmişdi...**



1980-ci illərin sonu, Qarabağın qara günlərinin başladığı zamanlar idi...

Bu da taleyin acı qisməti idi ki, o gün Ağdamdan toydan qayıdan zaman qatarda beynindən belə keçirməyə qorxduğu həmin dözülməz ağrılarla çox keçmədən üzləşmiş, ürəyində 30 illik bir həsrət, nisgil daş kimi asılıb qalmışdı. Bu illər ərzində qarabağlısından, naxçıvanlısından, lənkəranlısından, qubalısından, qaxlısından, gəncəlisindən asılı olmayaraq, bütövlükdə Azərbaycan xalqının hər bir vətəndaşında olduğu kimi, o da özünü Qarabağsız çox yarımçıq hiss etmişdi: “Çünki biz Qarabağsız kiçildik. Bu, təkcə torpaqlarımızın 20 faiz kiçilməsi deyildi, bu, bir insanın düşüncə hüdudlarının kiçilməyi, onun psixoloji bir diskomfortu idi. Biz özümüzü əzilmiş, şəxsiyyəti alçalmış azərbaycanlı kimi hiss edirdik. Bu, qaçqın, köçkün düşən, məcburi vətənini, ocağını tərk edən insanların, eynilə də mənim və Azərbaycan xalqının hər bir üzvünün dərindən hiss etdiyi, yaşadığı acı idi...”

Böyük Quruluş Partiyasının sədri, Milli Məclisin deputatı Fazil Mustafadır “Qarabağ söhbətləri”nin qonağı... Fazil müəllimlə qəlbimizin şah taxtında özünə yer edən Qarabağ sevgisindən söhbət açırıq, vətənimizin göz bəbəyi olan bu cənnət məkanın sıxıntılı günlərinə nəzər salır və nəhayət, xalqımızın “dəmir yumruq” kimi birləşərək Qarabağı azadlığa qovuşdurub arzularının zirvəsinə çatdığı o müqəddəs məqamlara yol alırıq, Qarabağın xoşbəxt sabahlarına qanad açırıq...

### Qarabağı itirməklə bütövlüyümüzü də itirmişdik

- Həyatımızın elə bir dövrünə gəldik ki, gözəllik məkanımız olan Qarabağ bizim yaralı yerimiz, qanayan yaramız, şikəst edilmiş bir məmləkətimiz oldu. Bu, bizə Qarabağı bəlkə də Azərbaycanın başqa bölgələrindən ayıraraq daha çox sevməyimizə səbəb oldu. Düzdür, hər kəsin doğulduğu, böyüdüyü yerlər var, amma ümumi bir vətən anlayışı bizə hər şeydən əziz oldu, çünki Azərbaycan bizim üçün bütöv bir sevgi məkanıdır. Qarabağ işğal altına düşəndən sonra hər bir azərbaycanlı Qarabağsız öz bütövlüyünü itirmiş oldu. Bax, o bütövlüyü tapmaq üçün Qarabağı daha çox sevməyə başladıq. Qarabağ bizi xalq kimi böyük göstərən bir fenomenə çevrildi.

Ona görə də hətta getmədiyimiz, görmədiyimiz yerləri belə xəyalımızda, düşüncəmizdə canlandıra bildik, hər daşına, cığırına bələd olduq, bütövlükdə o yerlərə sevgi ilə bağlandıq.

Hələ kiçik yaşlarımdan Qarabağ xanəndələrinin ecazkar səsləri ilə oxuduqları “Qarabağ şikəstəsi”ni dinləyərək o yerlərin vurğununa çevrilmiş, Qarabağın nə olduğunu içimə yığmışdım. Yəni “Qarabağ şikəstəsi” bizim bir həyat, zövq pasportumuz idi.



Qarabağ bölgəsinə ilk səfərim 1987-ci ildə Ağdama olmuşdu. Bir dostumla bərabər ora toy məclisinə getmişdik. Ozamankı səfərimdən Ağdam toyu, Ağdamın məşhur Çay evi ilə bağlı xatirələr qalıbdır. Amma Ağdam insanının qonaq sevgisi bambaşqa bir iz buraxıb yaddaşımda...

Həmin vaxtlar Qarabağda vəziyyətin gərgin olduğu dönəmlər idi və qatarla geriyə qayıdanda dostum demişdi ki, “bəlkə də bir daha bu yerlərə gələ bilmədik, deyəsən, bu erməni məsələsi çox su aparacaq...” Onda mən buna inanmamış, bu fikirləri özümdən uzaqlaşdırmışdım, amma sonradan qorxduğumuz başımıza gəldi...

### Şuşa bir fenomendir

*O, Qarabağın digər yerlərində isə 1992-ci ildə, həmin bölgənin ən çətin günlərində olmuşdu. O zaman Prezident Aparatının (indiki Prezident Administrasiyası) dövlət hüquq şöbəsinin müdiri işləyən Fazil Mustafa Laçının yarısı işğal olunduğu üçün Güləbird kəndinə qədər gedə bilmiş, eyni zamanda Kəlbəcər, Zəngilan, Qubadlı, Füzuli, Cəbrayıla yollanaraq orada dövlət qurumlarının rəsmiləri, əhali ilə görüşmüşdü.*



*Lakin Şuşa işğalda olduğu üçün oranı görmək ona nəsib olmamış, hələ uşaq, yeniyetməlik yaşlarından qiyabi olaraq heyranı olduğu bu şəhərin itirilməsinin dəhşətli acısını yaşamışdı...*

- 1982-ci ildə Gəncədə “Nizami Gəncəvi əsərlərinin bədii qiraəti” üzrə respublika müsabiqəsi keçirilirdi və Azərbaycanın bütün rayonlarından orta məktəb şagirdləri bura gəlmişdi. Biz də Naxçıvan məktəbliləri kimi müsabiqədə iştirak edirdik. Müsabiqədə Nizamiyə həsr olunmuş öz şeirimi söyləmiş və qaliblərdən biri olmuşdum. O zaman biz bir həftə Gəncədə qaldıq, bütün şagirdlər, müəllim heyəti ilə şəhərin müxtəlif görməli yerlərinə gəzintilərə çıxdıq. Həmin vaxt Şuşadan olan şagird, müəllimlərlə ünsiyyətdə oldum və onların mədəni, bilik səviyyələrinə heyran qaldım. Elə o zamandan Şuşa yaddaşıma ayrı bir məkan, yüksək düşüncə, biliklərə sahib olanların bir məkanı kimi həkk olundu, Şuşanı görmədən belə Şuşa insanı haqqında ilk təsəvvürü ilk dəfə orada əldə etdim.

2020-ci ildə qazandığımız parlaq Zəfərdən sonra Şuşaya gedəndə isə baxdım ki, bu cür mədəni komponentin içərisində insan başqa cür formalaşa da bilməzdi... Mübaliğəsiz deyirəm, adam Şuşada heç nə oxumasa, öyrənməsə belə şəhər, şəhərin daşı, qalası, yolu onu ayrı bir mədəniyyət formatında şəkilləndirəcək. Bu şəhərin cazibəsi budur...

### Qarabağ sevgisini qəlbimizdə yaşatdığımıza görə ora qayıda bildik

- O da həqiqətdir ki, həm də hər bir yerin dəyəri insanla ölçülür. Məsələn, mən Şuşanı daha çox şəxsiyyətlər, dahi Üzeyir bəy Hacıbəyli, Əbdürrəhim bəy Haqverdiyev kimi nəhənglərin, Azərbaycanın ən böyük mütəfəkkiri Əhməd bəy Ağaoğlu üzərindən sevmişəm. O cümlədən Şuşa deyəndə həmişə yadıma Həmidə xanım Cavanşir düşür. Yadıma gəlmir ki, nə zamansa Həmidə xanımın “Xatirələrim”ini oxuyanda, bunu dəfələrlə oxumuşam, göz yaşlarımı saxlaya bilim. Həmidə xanım Şuşa ilə, Mirzə Cəlillə bağlı xatirələrini o qədər gözəl və kövrək təsvir edib ki, insan duyğulanmaya bilmir. Həmçinin o kitabı oxuyanda Şuşada Azərbaycan qadınının göstərdiyi dəyanət, yardımsevərlik, qoçaqlıq gözlərin önündə canlanır.



Eyni zamanda Şuşa deyəndə Əhməd bəy Ağaoğlunun fədakar anası düşür yadıma. Bir misal çəkim, atası Əhməd bəyin molla olmasını istəyir, amma bəy qızı olan anası özü savadlı olmasa da, oğlunun təhsil almasını istəyir. Buna görə də o, qonşuda müəllim tutur və yaxasında olan qızıl sikkələrdən hər ay bir onluq qoparıb ona verir ki, oğluna xəlvət dərs keçsin, rus, Avropa dillərini öyrətsin. Görün, bir ananın fədakarlığı Əhməd bəy Ağaoğlu kimi şəxsiyyət yetişdirir. İndi biz Azərbaycanda bu cür qoçaq qadınların, anaların obrazını yüksəltməli, formalaşdırmalıyıq.

Elə bu baxımdan da Qarabağ bizim üçün təkcə daşın, qayanın, musiqinin fonunda görünən yer deyil, eyni zamanda insan fonunda görünən möhtəşəm məkandır. Bura Əhməd bəy Ağaoğluların, Həmidə xanımların, Üzeyir bəylərin, Xosrov bəy Sultanovların və daha saymadığım minlərlə möhtəşəm şəxsiyyətin obrazında görünən unikal bir yerdir və sevgimizin ünvanıdır. Elə biz də bu sevgini qəlbimizdə yaşatdığımıza görə Qarabağa qayıda bildik.

### Qarabağın əldən getməsi Azərbaycanın çöküşü demək idi

*Fazil Mustafa deyir ki, əsasən sovet rejiminə qarşı mübarizə üçün siyasətə atılsa da, leqal siyasətə gəlişi məhz Qarabağ dalğası başlayanda olub. O, universitet tələbəsi olarkən Qarabağda Topxana meşəsinin qırılması istiqamətində baş verən proseslərə qarşı etirazlara qoşulur.*

- 1988-ci ilin fevralında Bakı Dövlət Universitetinin yataqxanasında Topxanada ağacların kəsilməsinə qarşı ilk etiraz mitinqi etdik, tələbələr böyük yürüş keçirdilər. Ardınca isə Qarabağla bağlı çoxlu tədbirlər, mitinqlər keçirildi, amma ən möhtəşəmi meydan hərəkatı oldu. Meydan hərəkatı bizim yataqxanadan başladı və mən də bütün proseslərin içində oldum. Biz anladıq ki, Qarabağın əldən getməsi Azərbaycanın yaralanması, zəifləməsi, çöküşü deməkdir. Həqiqətən də, bu hadisə Azərbaycana böyük zərbə vurdu.



Həmin dövrdə bununla bağlı xaricdə də planlaşdırmışdılar ki, torpaqlar müəyyən dərəcədə Azərbaycandan alınır və artıq müstəqillik qazananda Qarabağsız bir Azərbaycan olur. Sadəcə həmin dövrdə o hərəkat, tədbirlər, etiraz Qarabağı rəsmi şəkildə Azərbaycandan qoparmağa imkan vermədi, amma işğal etməklə Qarabağı faktiki bizdən qoparmağı bacardılar...

### O zaman Azərbaycanda nə ordu var idi, nə də onun arxasında duran dövlət

- 1990-cı illərdə Azərbaycanda əsgər, vətənpərvər insanlar var idi, amma ordu yox idi. Ordunun yaranmamasının səbəbləri birbaşa sovet sisteminin qoyduğu məhdudiyyətlər idi, imkan vermirdi ki, ordu yaradaq. Buna görə də Qarabağ uğrunda təcrübəsiz də olsa, fədakar əsgər döyüşdü, o zaman Ağdam 6, Laçın 3, Kəlbəcər 2 mindən çox, o cümlədən digər rayonlarımızın hər birindən çoxsaylı şəhid verdik. Yəni biz Qarabağı döyüşsüz itirməmişdik. Amma ordu çox önəmlidir və o ordunun arxasında duran dövlət olmalıdır. O zaman isə Azərbaycanda ordu, arxasında duran dövlət yox idi. Bir dənə məzlum xalq və xalqın fədakar övladları var idi ki, işini, sənətini, həyatını atıb gəlib döyüşürdülər. Qarşımızda isə nizami ordu, ermənini silahlandıran qüvvələr var idi və biz bu müharibəni qələbəyə çatdıra bilməzdik. Buna görə də təşkilatlandırma çox vacib idi...

Bu təşkilatlandırmanı isə mərhum Prezident Heydər Əliyev hakimiyyətə gələndən sonra qura bildi. Heydər Əliyev hakimiyyətə gələnə qədər ordu siyasətin əlində yesir vəziyyətdə idi, siyasi vasitəyə çevrilmişdi. O, ordunu siyasətdən araladı, peşəkar bir xidmətə çevirdi...

### Heydər Əliyev Qarabağın Azərbaycanın hüquqi siyahısından çıxmasına yönəlik təzyiqləri qətiyyətlə dəf etdi

- Türk şairi Orxan Vəli Qanıqın bir şeiri var, deyir ki, “Bu vətən üçün nələr etmədik, kimimiz öldük, kimimiz nitq söylədik...”



Ötən 30 il ərzində Qarabağın qaytarılması üçün ölən də, yaralanan da, siyasətdə, diplomatiyada fəaliyyət göstərən hər bir insanın atdığı bircə addım da bizim üçün dəyərlidir.

Amma bu istiqamətdə Heydər Əliyevin fəaliyyəti müstəsna əhəmiyyətə malikdir. Ən əsası, o, Qarabağ məsələsinin beynəlxalq arenada Azərbaycanın vazkeçilməz məsələsi olduğunu möhkəmlətmək baxımından inanılmaz işlərə imza atdı. Azərbaycanın daxilində də o dövrdə bütün məsələlər Qarabağ üzərində indeksləndi və məhz Heydər Əliyevin izlədiyi siyasətin mahiyyəti də bu idi. O zaman biz neft müqaviləsini də o ölkələrdən alacağımız dəstəyə görə bağlayırdıq, hansısa ölkə ilə münasibətlərimizi Qarabağa faydası olacaq deyə qurmağa çalışırdıq. Və Heydər Əliyevin səyləri hədər getmədi, O, bunu bacardı, Qarabağ mövzusunun aktuallığını Prezident olduğu dövrdə gündəmdə tuta bildi. Baxmayaraq ki, çox ağır dövrlər idi. Neft gəlirləri yox, Azərbaycan sıxıntı içində, daxili problemlər çox, kənardan təzyiqlər isə böyük... Amma Heydər Əliyev Qarabağ məsələsini heç zaman diqqətdən kənarda saxlamadı, Qarabağın Azərbaycanın hüquqi siyahısından çıxmasına yönəlik təzyiqlər heç birinə boyun əymədi, qol çəkmədi. Halbuki belə etsəydi, Azərbaycan hansısa sıxıntıdan guya “çıxmış” kimi görünəcəkdi. Amma Heydər Əliyev bunların heç birinə getmədi və hər zaman əminliklə bildirdi ki, bu bütövləşmə mütləq olacaq...

Heydər Əliyevin bu misilsiz səyləri nəticəsində biz Qarabağ üzərində hüquqi məsələni saxlamaqla, 30 il sonra həmin zəmin üzərində Qarabağı özümüzə qaytara bildik.

Əgər hüquqi cəhətdən Qarabağı itirmiş olsaydıq, biz o yerlərdən gözümüzü çəkməli olacaqdıq.

### İlham Əliyev Qarabağ məsələsini bütün platformalarda ana problem kimi qaldırdı

- Prezident İlham Əliyev də məhz bu yaradılan möhkəm fundamentin üzərindən Qarabağın bir məkan, hüquq olaraq harasa sürüşməsinə imkan vermədi. İlham Əliyev də o xətti, Heydər Əliyevin yaratdığı “Qarabağ heykəli”ni postamentin üzərində qorudu. Çünki hər tərəfdən o heykələ iplər atmışdılar, texnikaları, tankları düzmüşdülər ki, aşırsınlar. Amma İlham Əliyev Qarabağ məsələsini bütün platformalarda ana problem kimi qaldırdı və həlli istiqamətində böyük işlər gördü.

Dövlət başçımızın ən böyük xidməti isə Xocalı faciəsinin dünya parlamentlərində bir soyqırımı olaraq qəbul edilməsini təmin etmək oldu. Çünki Xocalı soyqırımı üzərindən Qarabağda törədilən erməni vəhşiliyini dünyaya sübut edə bildik. Xocalı qətliamını erməni də, başqası da inkar edə bilmədi. İlham Əliyevin diaspor işini Xocalıya yönəltməsinin, bu istiqamətdə Leyla xanım Əliyevanın “Xocalıya ədalət!” kampaniyasının böyük effekti oldu və Xocalı bütün dövlətlərdə, parlamentlərdə müzakirə olundu. Bütövlükdə dünyanı Azərbaycanın məhrumiyyətini görməyə vadar etdi. Hadisələr elə gətirdi ki, bu gün də məhz bu təbliğatın effektini gördük. Əleyhimizə erməni lobbisinin nə qədər çalışması olsa da, Azərbaycana zülm edildiyini dünyaya sübut edə bildik.

### İlham Əliyevin yaşadığı o məqam ibadət idi...

- İlham Əliyev beynəlxalq arenada olduğu kimi, Azərbaycan xalqının itirilmiş inamının özünə qaytarılması istiqamətində də möhtəşəm işlər gördü. Hələ 2016-cı ildə Aprel zəfəri zamanı Lələtəpəni azad etməklə İlham Əliyev xalqımıza o mesajı verdi ki, bundan sonra dağ gəlir...

Elə yenə də Cocuq Mərcanlıda Şuşadakı Gövhər ağa məscidinin modelinin eynisini tikdirməklə Qarabağa tezliklə qayıdacağımızın inamını aşıladı. İlham Əliyev o zaman söylədi ki, bu, Şuşadakı məscidin əksidir, biz bu məscidi Şuşada bərpa edəcəyik. Üzərindən qısa zaman keçəndən sonra isə biz o xoşbəxt məqama şahidlik etdik.

Biz gördük ki, İlham Əliyev illər imiş ki, buna hazırlaşırmış, bu istiqamətdə informasiyaları çək-çevir edirmiş, hansı məqamda nəyi başlayacağımızı, hansı məqamda hansı təzyiqi zərərsizləşdirməyimizi gözəl bilirmiş.

Vətən müharibəsi dövründə Prezident müsahibəsi zamanı da elə belə dedi ki, “Şuşasız bizim işimiz yarımçıq olar”. Bu, əslində bir işarə idi və hər kəs Ali Baş Komandanın verdiyi bu savaş kodu ilə bildi ki, istiqamətimiz haradır, hara getməliyik...

Bütün bunlar isə onu göstərir ki, sıravi vətəndaşından tutmuş ən ali kürsüdə əyləşən Prezidentinə qədər hər bir azərbaycanlı ruhunu Qarabağdan, Şuşadan alır.

Hər kəs xatırlayır, ötən il Şuşada “Xarıbülbül” festivalında Prezident İlham Əliyevin, mərhum Heydər Əliyevin möhkəm inamla Şuşaya, digər itirilmiş torpaqlarımıza mütləq gedəcəyimizlə bağlı səsləndirdiyi fikirləri eşidəndə kövrəldiyi məqam var idi. Bilirsiniz, insanın həyat,



tale qarşısında, Allah qarşısında bir borcu olur və onu bir borc olaraq yerinə yetirəndən sonra sanki bir rahatlıq tapır, elə bil ki, ibadət edir. Bax, İlham Əliyevin də yaşadığı o məqam ibadət idi...

Bu, İlham Əliyevin təkcə özünün bir Prezident kimi yerinə yetirdiyi qürur borcu deyildi, bu həm də milyonlarla insanın qürurunun dirçəlməyi, onun minnətdarlığını qazanmaq idi...

### O cür sıldırım qayaları ancaq könlündə Qarabağ ruhu olan Azərbaycan əsgəri qalxa bilərdi

- Şuşada iki dəfə səfərdə olmuşam. Bir dəfə Prezidentimizin və Mehriban xanımın iştirakı ilə Vaqifin məqbərəsinin açılışı ilə bağlı təşkil olunan tədbirdə, bir dəfə də siyasi partiyaların ümumi səfəri zamanı. Şuşada olanda qalanı bu başından o başına təkbaşına gəzdim. Bütün küçələrindən keçdim, qədim binalarını gördüm, Cıdır düzünü dolaşdım, oradan Topxanaya, Daşaltıdan Şuşaya uzanan sıldırım qayalara, dərin dərələrə baxdım... Bir daha Azərbaycan əsgərinin qəhrəmanlığına heyran qaldım...

2001-2003-cü illərdə 1 il 6 ay Azərbaycan ordusunun zabiti - leytenant, daha sonra isə baş leytenant rütbəsi ilə xidmət etmişəm. Tərtərdən Ağdama kimi ermənilərlə ən yaxın əksər səngərlərdə olmuşam. Orada coğrafi mövqe belə idi ki, dağlar ermənilərin əlində, biz aşağıda idik. Demək olar ki, hər gün o sualı özümə verirdim ki, “biz o dağlara necə qalxacağıq?!”

Şuşaya gedəndən sonra isə mən bu sualıma cavab tapa bildim və Azərbaycan əsgərinin nə qədər böyük əsgər olduğunun bir daha şahidi oldum. O cür sıldırım qayaları ancaq ürəyində torpaqlarımızın azadlığının eşqi, könlündə Qarabağ ruhu olan Azərbaycan əsgəri qalxa bilərdi. Başqa cür bu, mümkünsüz idi...

Eyni ilə də Talış, Murov yüksəkliyini aşmaq çox ağır bir məsələ idi. Onu da xüsusilə vurğulayım ki, Vətən müharibəsində biz təkcə savaş qabiliyyəti ilə deyil, ağılla, diplomatiya ilə Qarabağ məsələsini çözə bilən xalqa çevrildik.

Yenə də Prezident İlham Əliyevin zəkası sayəsində Kəlbəcəri, Laçını, Ağdamı itkisiz əldə edə bildik. Belə olmasaydı, şübhəsiz, burada böyük itkilər verəcəkdik.

Eyni zamanda bu müharibədə Azərbaycan xalqının sərgilədiyi möhtəşəm birlik, bütöv və yenilənmiş bir xalqın obrazı yarandı. Bütün dünya, o cümlədən Ermənistan gördü ki, körpəsindən ahılına qədər bu haqq savaşının içərisində olan Azərbaycan xalqını məğlub etmək mümkün deyil...

### Qarabağı bir daha itirməyi Allah bizə bağışlamaz...

- İndi səbirsizliklə o yurdlara Böyük qayıdışı gözləyirik. Onu da deyim ki, mən həm də Qarabağa könüllü qayıdışın tərəfdarıyam. Özü də təkcə qarabağlıların deyil, Qarabağı sevənlərin qayıdışının. Mənim üçün Qarabağı sevən orada doğulub onun üçün vuruşan, döyüşən, şəhid, qazi olan, eyni zamanda Naxçıvanda, Lənkəranda, Qubada və Azərbaycanın digər bölgələrində doğulan, lazım gəldikdə Qarabağ üçün canını belə verməkdən çəkinməyən insan deməkdir.

Ona görə də indi bu məkanlarla bağlı bizim fərqli konsepsiyamız olmalıdır. Hər kəs bilməlidir ki, Qarabağda yaşamaqla bərabər, vətəndaş kimi həm də o torpaqların sərhədçisi, qoruqçusu olmalı, Azərbaycanın bu gözəl guşəsini göz bəbəyi kimi qorumalı, bütün coğrafi çətinliklərinə, risklərinə sinə gərməliyik...

Çünki itirdiyimiz Qarabağ kimi bir gövhəri illər sonra geri qaytarmağı bizə nəsib edən Allah bir daha onu itirməyi bizə bağışlamaz...

Bu bölgə eyni zamanda bizim bir mədəniyyət rəqabəti bölgəmizdir. İstəsək də, istəməsək də, orada erməni qalacaq. Statusu, muxtariyyəti olmayacaq, amma Azərbaycanın tərkibində qalacaq. Biz onlarla müasir, modern hüquqla münasibət quracağıq. Yəni sivil yaşamaq istəyən insanla hüquq müstəvisində münasibət quracağıq və o zaman biz onları üstün mədəniyyətlə məğlub etməliyik.

Qarabağda, Şərqi Zəngəzurda xüsusilə məktəb şəbəkəmiz yüksək səviyyədə qurulmalı, o torpaqlarda ilk əvvəl təhsilimiz dirçəldilməlidir. Çünki özünü Qarabağın əbədi sakini görəcək o şagirdlərimizi həmin məktəblər yetişdirəcək.

Bütün bunları gerçəkləşdirsək, Qarabağ əzəli olduğu kimi, əbədi də Azərbaycanın olacaq.

### Yaddan çıxmaz Qarabağ



*Qatar yırğalana-yırğalana Ağdama yaxınlaşır və pəncərənin önündən bir-biri ilə ötüşən Qarabağın əsrarəngiz təbiət tabloları gəlib keçirdi. Ucu-bucağı görünməyən çəmənliklər, yamyaşıl meşələr, uzaqlardan gözə dəyən bəyaz çalmalı dağlar, nəhəng qayaların bağrından qoparaq kükrəyə-kükrəyə axan çaylar yaxınlaşdıqca onun da ürəyinə xoş bir qürur yayılır və uzun illərdən sonra bu yerlərə bir daha gələ bildiyi üçün özünü dünyanın xoşbəxti sanırdı...*

*Və o da bu vətənə qayıdış qatarının təkərlərinin dəmir relslərə dəyərək çıxardığı qəribə və ritmik taraqqaturuq səsin ahənginə qoşularaq fərəhlə ”Qarabağ şikəstəsi”ni zümzümə edirdi...*

*“Aləm cənnətə dönsə, yaddan çıxmaz Qarabağ...”*

***Yasəmən MUSAYEVA,***
***“Azərbaycan”***



# Mədəniyyət



**● Sənət dünyası**



# Zənginlik

## Miniatür Kitab Muzeyinin təsisçisi, "Şöhrət" və "Şərəf" ordenli, bir çox beynəlxalq mükafatın laureatı Zərifə Salahova 90 illik yubileyini qeyd edib

**Kitab bilik mənbəyi olmaqla yanaşı, həm də xalqın tarixi yaddaşı, mədəniyyəti, etnoqrafiyası, məişəti, milli-mənəvi sərvətlərindən biridir.**

Əməkdar mədəniyyət işçisi, Miniatür Kitab Muzeyinin təsisçisi Zərifə Salahova deyir ki, kitabların məzmunu müxtəlif olduğu kimi, zaman keçdikcə formaları da dəyişir: "Uşaq yaşlarımdan kitaba marağım hədsiz dərəcədə çox olub. Xüsusən miniatur kitablardan ibarət kolleksiya yaradır və tərkibini zənginləşdirirdim. Kolleksiyaya müxtəlif xalqların dillərində nəşr edilmiş miniatür kitablar daxil edilirdi. Hansı ölkəyə səfər edirdimsə, oradan gətirdiyim ən qiymətli hədiyyə miniatür kitablar olurdu. Zənginləşən kolleksiyanın tərkibi genişləndikcə yaşadığım mənzildə onların saxlanması və nümayişi çətinləşirdi..."

Zərifə Salahova ötən illərə dönərək, xatirələrini yada salır: "1993-cü ildə Ulu Öndər Heydər Əliyev ilk dəfə Prezident seçildikdən sonra onun andiçmə mərasimində mən də iştirak edirdim. Ümummilli Lider Heydər Əliyevin dərin məzmunlu həmin nitqinə qulaq asandan sonra fikirləşdim ki, bunu mütləq miniatür kitab kimi nəşr etdirmək lazımdır. Həmin kitabı - "Vətənə, dövlətə, xalqa sədaqət andı"nı nəşr etdirdik. Azərbaycan, rus və ingilis dillərində nəşr etdirdiyimiz kitabın 1995-ci il iyunun 3-də Milli Kitabxananın oxu zalında təqdimat mərasimi keçirildi. Təqdimat mərasimində kolleksiyadan 2000 kitabın sərgisini təşkil etdik. Oradakı çıxışımda Ulu Öndərimizə müraciətlə bildirdim ki, əgər yer versələr, Miniatür Kitab Muzeyi yaradar və kitabları da sərgiləyərdik. Heydər Əliyev sərgiyə baxarkən dedi ki, bu kitabların hamısı səninkidir? Dedim ki, bəli, amma hamısı deyil, burada 2000 kitab düzmüşük, kolleksiyamda isə 4000 nüsxədir. Orada Erik Honekkerin 12 cilddən ibarət kitabı da var idi. O zaman Almaniya Demokratik Respublikası artıq yox idi. Bildirdim ki, cənab Prezident, bu gün Almaniya Demokratik Respublikası yoxdur, amma kitablar saxlanılır. O zaman Ümummilli Lider dedi ki, cəmiyyətlər dağılsa da, kitablar, görürsünüzmü, qalır..."

Bütün bunları xatırlamaqda Zərifə Salahovanın məqsədi Ümummilli Lider Heydər Əliyevin Miniatür Kitab Muzeyinin yaradılmasına göstərdiyi mənəvi dəstəyi bildirməkdir. Bununla demək istəyir ki, Ulu Öndər Heydər Əliyevin uzaqgörənliyi, vətənpərvərliyi, təəssübkeşliyi, milli-mənəvi sərvətlərə qayğısının nəticələri bu gün göz önündədir və onlardan biri də məhz haqqında söz açdığımız muzeydir. Ümummilli Lider yaxşı bilirdi ki, bu kitabların hansı gələcəyi var.

Bu muzey şəxsi kolleksiya əsasında və Ümummilli Lider Heydər Əliyevin göstərişi və UNESCO-nun qərarı əsasında yaradılıb, 2002-ci il aprelin 23-də "Beynəlxalq Kitablar və Müəllif Hüquqları Günü"ndə isə rəsmi açılışı olub.



Fotolar İlham BABAYEVİNDİR

Zərifə Salahovanın əməyi istər Ulu Öndər Heydər Əliyev, istərsə də Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən yüksək dəyərləndirilib. Belə bir ünikal kitab məbədi yaradan, Azərbaycan Respublikasının ictimai və mədəni həyatında uzunmüddətli səmərəli fəaliyyət göstərən Zərifə Salahova 2007-ci ildə dövlət başçısının imzaladığı sərəncamla "Şöhrət" ordeninə layiq görülüb. Azərbaycan Prezidenti İlham Əliyevin daha bir sərəncamı ilə bu il fevralın 2-də anadan olmasının 90 illiyi ilə əlaqədar Zərifə Salahova "Şərəf" ordeni ilə də təltif olunub.

Xatırladaq ki, Zərifə Teymur qızı Salahova 2 fevral 1932-ci ildə Bakıda anadan olub. M.F.Axundov adına Azərbaycan Pedaqoji İnstitutunun Filologiya fakültəsini və 1968-ci ildə Moskva Poliqrafiya İnstitutunu bitirib. Zərifə Salahova 40 ildən çoxdur ki, 1990-cı ildə adı "Respublika Kitab Cəmiyyəti"nə dəyişdirilən Azərbaycan qeyri-hökumət könüllü kitabsevərlər cəmiyyətinə rəhbərlik edir.

1990-cı ildən Azərbaycan qadınlarının Bakı Assosiasiyasının sədridir. Azərbaycan Prezidenti yanında UNESCO işləri üzrə komissiyanın, 1992-ci ildən bəri MOK-un icra orqanının üzvü, AMEA-nın İnsan Haqları üzrə İnstitutunun professorudur. Milli "Humay" mükafatının laureatı, "Sülh səfiri"dir.

Zərifə Salahova Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dəstəyi ilə onun tərəfindən dünyada analoqu olmayan Miniatür Kitab Muzeyinin yaradılmasını həyatının ən böyük bəhrəsi hesab edir.

Dünyada ilk özəl Miniatür Kitab Muzeyi adlanan bu mədəniyyət ocağındakı 38 rəfdə 5700 nüsxədən artıq kitab nümayiş etdirilir. Dünyanın 70-ə yaxın ölkəsində çap olunmuş bu kitabların ən kiçik formatlısının ölçüləri 0,75x0,75 mm-dir (nöqtə boyda). 3 ədəd kitab isə 2x2 mm formatındadır. Muzeyə fəaliyyəti dövründə 300 min nəfərədək ziyarətçi gəlib.

Zərifə Salahova deyir ki, "Ginnesin Rekordlar Kitabı"na maraq da təsadüfi yaranmadı: "..."Evronyus" gəlib muzeyi çəkmişdi, Londonda nəşr edilən qəzetlərin biri yazmışdı ki, Azərbaycana kim səfər etsə, mütləq Zərifə Salahovanın yaratdığı Miniatür Kitab Muzeyinə baxsın. Sən demə, "Ginnesin Rekordlar Kitabı"na düşmək üçün çox ciddi tələblər irəli sürülür, sənədlər lazım gəlirmiş. İlk növbədə, onların standartlarına cavab verən, kitabımız olmalı idi. 2014-cü il dekabr ayının ortalarında bizdən "Ginnesin Rekordlar Kitabı"nda necə, yəni hansı adla təmsil olunmağımızı soruşdular. Bilmək istəyirdilər ki, kitaba muzey, yaxud şəxsi kolleksiya adı ilə düşmək istəyirik..."

2015-ci il yanvarın 21-də "Ginnesin Rekordlar Kitabı"nın rekordlar üzrə menecerlər komandasından alınan məlumata görə, muzeyin sifarişi qəbul edilmişdi. Zərifə Salahovanın illərlə çəkdiyi zəhmət bahasına ərsəyə gələn muzey miniatür kitabların dünyada ən böyük kolleksiyası hesab olunurdu. Məktubda yaxın vaxtlarda Zərifə Salahovaya "Guinness World Records" sertifikatı təqdim ediləcəyi barədə yazılırdı...

2015-ci il yanvarın 25-də isə artıq muzeyin "Ginnesin Rekordlar Kitabı"na düşməsini təsdiq edən sertifikat alacaqları barədə məktub Zərifə xanım Salahovanın bu sahədəki xidmətlərinə verilən ən ali mükafat qədər əziz və sevindirici xəbər gəlmişdi. Bu, yalnız onun deyil, özünün də xüsusi vurğuladığı kimi, öncə Ümummilli Lider Heydər Əliyevin Miniatür Kitab Muzeyinə və ümumiyyətlə, xalqımızın milli-mənəvi dəyərlərinə dəstəyi, diqqət və qayğısının növbəti nailiyyəti idi...

Bu günlərdə "İndigo" MMC-nin Miniatür Kitab Muzeyinə həsr edilən daha bir nəşri işıq üzü görüb. Azərbaycan, ingilis və rus dillərində çapdan buraxılan "Prezidentin salnaməçisi" kitab-albomu, əslində, Zərifə Salahovanın bu sahədəki xidmətlərinin hesabat formatlı xatirə albomu təsirini də bağışlayır.

*Məhəmməd NƏRİMANOĞLU,*
*"Azərbaycan"*

**● Elm xadimləri**

# Dünyaşöhrətli alimin elmi irsinə həsr olunmuş konfrans keçirilib





**Bu günlərdə Kaliforniyanın Berkli Universiteti və Milli Elmlər Akademiyasının İdarəetmə Sistemləri İnstitutunun təşkilatçılığı ilə böyük alim Lütfi Ə.Zadənin elmi irsinə həsr olunmuş Soft Computing üzrə 8-ci Ümümdünya konfransı keçirilmişdir.**

Onlayn formatda olan konfransda Kaliforniya, Yaponiya, Texas, Meksika, Braziliya, Almaniya, Avsriya, Türkiyə, Polşa, Macarıstan, Rumıniya, Hindistan, Pakistan, Rusiya, Ukrayna, Belarus və digər ölkələrdən olan görkəmli alimlər iştirak etmişlər. 100-dən çox məqalə yazılmış, dünyaşöhrətli alimin elmi irsi üzrə müxtəlif mövzularda məruzələr dinlənilmişdir. Lütfi Ə.Zadə irsinə həsr olunmuş 16 plenar məruzəçinin çıxışı konfrans iştirakçılarının böyük marağına səbəb olmuşdur. Konfransın baş katibi olaraq onu qeyd etməliyəm ki, bu möhtəşəm tədbir digər konfranslardan dünya üzrə Lütfi Ə.Zadə davamçılarının çoxunun burada iştirak etməsi və mühüm çıxış və məruzələrlə üstün idi.

Lütfi Ə.Zadə həmişə deyirdi: "Mən özümü Azərbaycana hər zaman yaxın hiss etmişəm, mən azərbaycanlıyam. Mənim milli-mənəvi dəyərlər ruhunda formalaşmağımda Bakıda keçirdiyim illərin böyük əhəmiyyəti olmuşdur. Azərbaycan hər zaman mənim qəlbimin ən isti yerindədir..."

Lütfi Ələsgərzadə 1921-ci il fevral ayının 4-də Bakıda anadan olmuşdur. Böyük alimin doğma Bakıya ilk səfəri 1965-ci ildə Qara dənizdə Odessa-Batumi istiqamətində üzən "Admiral Naximov" teploxodunda avtomatik idarəetmə problemlərinə həsr olunmuş beynəlxalq elmi konfransdan sonra olmuşdur. 43 ildən sonra Lütfi Ə.Zadə "BakuTel" beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgi və konfransında iştirak etmək üçün 2008-ci il noyabrın 8-10-da Bakıya ikinci dəfə səfər etmişdir. Professor Lütfi Ə.Zadənin elmi yaradıcılığı olduqca zəngin və çoxsahəlidir.

Görkəmli alimin "Zamana görə dəyişən şəbəkələrin tezlik sahəsinin inkişafı" (1949), Ç.R.Raqassini ilə birlikdə yazdığı "Vinerin proqnozlaşdırma nəzəriyyəsinin inkişaf etdirilməsi" (1950), Ç.R.Raqassini ilə birlikdə yazdığı "Z-çevirmə üsulunun yaradılması" (1952), "Qeyri-xətti süzgəclər nəzəriyyəsinin yaradılması" (1953), "Sistemlərin identifikasiya problemlərinin formalaşdırılması" (1956), Ç.A.Desoir ilə birlikdə yazdığı "Xətti sistemlərin təhlili üçün vəziyyət fəzası" (1963), R.E.Belman ilə birlikdə yazdığı "Qeyri-səlislik şəraitində qərar qəbul etmək" (1970), "Linqvistik dəyişən və qeyri-səlis "əgər-onda" qaydalar konsepsiyası" (1973), "Təbii dilin işlənilməsi üçün mümkünlük nəzəriyyəsi" (1978), "Təxmini mühakimə nəzəriyyəsi" (1979), "Sağlam düşüncəyə əsaslanan mühakimə nəzəriyyəsi" (1985), "Dispozisiya məntiqi" (1988), "Qeyri-səlis qaydalar, qeyri-səlis qraf və qeyri-səlis ehtimal hesabı, soft computing nəzəriyyəsi" (1991), "Sözlə işləyən kompüterlər nəzəriyyəsi" (1996), "Qeyri-səlis informasiya qranulyasiya nəzəriyyəsi" (1997), "Təəssürat nəzəriyyəsi" (1998) dünya elminin inkişafında mühüm rol oynayır. Dünyanın şöhrətli azərbaycanlı alimi Lütfi Ə.Zadə qeyri-səlis çoxluqlar və qeyri-səlis məntiqin atası, banisi idi. Bir faktı da qeyd edək ki, alim 2008-ci ildə Beynəlxalq Telekommunikasiya sərgisində iştirak etmək üçün doğma vətəni Bakıda olarkən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onu qəbul etmişdir. 2011-ci ildə 90 illik yubileyi münasibətilə o, "Dostluq" ordeni ilə təltif edilmişdir.

Lütfi Ə.Zadə deyirdi: "Mən bilirəm ki, Prezident İlham Əliyev Azərbaycanın inkişafında maraqlıdır, xüsusilə elmin inkişafında. Hal-hazırda bu inkişaf var. Ən önəmlisi isə düzgün yolun olmasıdır. Nələrin necə edilməsini mən deyə bilmərəm, amma Azərbaycan universitetləri və digər təhsil ocaqları ilə Amerika universitetlərinin sıx əməkdaşlığını çox arzulayıram, xüsusilə Berkli Universiteti ilə Azərbaycan Texniki Universiteti arasında növbəti 5 il müddətinə imzalanan partner müqaviləsi məni çox sevindirdi. Mən Berkli Universitetində Azərbaycandan daha çox elmi tədqiqatçı və tələbə görmək arzusundayam".

Alimin 90 illik yubileyi münasibətilə impak faktorlu ACM jurnalının xüsusi buraxılışı olmuşdur.

2016-cı ildə Lütfi Ə.Zadənin anadan olmasının 95 illik yubileyi münasibətilə Azərbaycan Milli Elmlər Akademiyası onu "Nizami Gəncəvi Qızıl medalı" ilə təltif etmidir.

Alimin "Qeyri-səlis çoxluqlar" məqaləsinə Google Scholar-da artıq 100,000-dən çox istinad verilmiş və Zadənin bütün məqalələrinə 185,000-dən çox istinad var.

Qeyri-səlis məntiq nəzəriyyəsinin banisi Lütfi Ə.Zadə 96 yaşında vəfat etmişdir və arzusuna uygun olaraq dogma vətənində dəfn edilmişdir.

*Şahnaz N.ŞAHBAZOVA,*
*Soft Computing üzrə 8-ci Ümümdünya Konfransının baş katibi, professor*

**● Xalq sənəti**



# Dəyərlərdən gələn işıq

## Zəngin mədəniyyətimizin nümunələri - Azərbaycan xalçaları

**Azərbaycan xanımları toxuduqları xalçalara sadəcə bir məişət əşyası kimi baxmayıblar. Tarix boyu belə olub. Hər xalçaçı bu sənətin incəliklərini öz ustalarından öyrənib və ənənələri davam etdirib. Eyni zamanda toxuduğu hər xalçaya öz aləmindən baxmağı bacarıb. Vurduğu hər naxışda, atdığı hər ilmədə öz duyğularını, düşüncələrini, arzularını, xəyallarını da ifadə edib. Nəticədə Azərbaycanın xalçaçılıq sənəti gündən-günə zənginləşib.**

Ölkə ərazisində aparılan arxeoloji qazıntılara və yazılı mənbələrə görə, Azərbaycanda xalça toxuculuğu Tunc dövründə, yəni 5 min il bundan əvvəl meydana gəlib. Tarixi mənbələrə əsasən, Azərbaycan Orta əsrlər dövründə Şərqdə xovlu və xovsuz xalçaların istehsalına görə mühüm mərkəzlərdən biri hesab edilib. Tədqiqatlardan məlumdur ki, Azərbaycanın şimal-şərq hissəsi XI-XII əsrlərdə yüksək keyfiyyətli xalça istehsalına görə mərkəz kimi tanınıb. Orta əsrlərdən başlayaraq, Azərbaycan xalçaları bütün dünyada xüsusilə tacirlərin marağına səbəb olub. İpək yolu üzərində olan dövlətlərdə xalça sənəti mövcuddur. Ancaq Azərbaycan xalçası bütün ölkələrdə istehsal olunan xalçalardan daha zəngindir. Məmləkətimizdə əsrlər boyu müxtəlif toxunuş və ornamentlərlə zəngin olan saysız-hesabsız xalça növləri yaranıb.

Azərbaycan, ümumiyyətlə, qiymətli arxeologiya, mədəniyyət, mənəviyyat örnəkləri ilə UNESCO-nun qeyri-maddi irs siyahısında yer tutub. Zəngin mədəniyyətimizin ən gözəl, ən dəyərli nümunələrindən olan Azərbaycan xalça sənəti də 2010-cu il 15-18 noyabr tarixlərində Keniya Respublikasının Nayrobi şəhərində keçirilən UNESCO-nun Qeyri-maddi mədəni irs üzrə Hökumətlərarası Komitəsinin X sessiyasında bu qurumun Bəşəriyyətin qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısına daxil edilib. Bu, ölkəmizdə qeyri-maddi mədəni irs nümunələrinin qorunması və beynəlxalq səviyyədə təbliği məqsədilə Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ICESCO-nun xoşməramlı səfiri, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsləri və dəstəyi ilə həyata keçirilən silsilə tədbirlərdən biri olub. Bundan əvvəl isə muğam və aşıq sənəti, Novruz bayramı UNESCO-nun müvafiq siyahısına salınıb.

Azərbaycanın qeyri-maddi mədəniyyət nümunələri də bəşəri dəyərlərin dünyada qorunması, onların gələcək nəsillərə çatdırılması istiqamətində məqsədyönlü və ardıcıl iş aparan UNESCO-nun diqqətindədir. Muğam sənəti, Novruz bayramı, aşıq və xalça sənətinin təşkilatın qeyri-maddi mədəni irsin qorunması üzrə reprezentativ siyahısına daxil edilməsi bunun bariz nümunələridir.

Diqqətə çatdıraq ki, Azərbaycan xalçaları uzun illər bəzi dünya ölkələrində İran, Qafqaz xalçaları kimi təqdim edilib. Bu gün isə artıq Azərbaycan xalçaları kimi tanınır.

Qeyd etdiyimiz kimi, 2010-cu ildə Azərbaycan mədəniyyətində əhəmiyyətli hadisələrdən biri baş verib. Belə ki, xalçaçılıq sənətimiz UNESCO-nun Bəşəriyyətin qeyri-maddi mədəni irsinin reprezentativ siyahısına daxil edilib.

Artıq dünyada öz adı, öz ünvanı ilə tanınmaqda, tanıdılmaqda olan Azərbaycanda xalçaçılıq sənəti bu gün öz tarixi inkişaf yolunu uğurla davam etdirir. Bununla yanaşı, bu sənət öz mənbəyindən ayrılmır, xalçalarımız ənənəvi qaydada toxunur. "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında" qanunun qəbul edilməsi, Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi üçün müasir standartlara uyğun binanın inşa edilməsi bu qədim el sənətinin inkişafına təkan verib.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

**● Muğam ifaçılarımız**

# Adı hörmətlə xatırlanan ustad

**2020-ci ilin noyabrında Şuşa 30 illik erməni işğalından azad ediləndən sonra onun ictimai-mədəni həyatında yeni dövr başlanmışdır. Buna görə Şuşanın tarixində iz qoymuş, tanınmış şəxsiyyətlərin ruhu da şaddır. Bu şəxsiyyətlər içərisində xatırlananlardan biri də XVIII əsrin ikinci yarısından muğam sənətinin inkişafında mühüm xidmətləri olmuş Hacı Hüsüdür.**



Mahir ifaçılığı ilə yanaşı, muğamlarımızın təbliğində əvəzsiz xidmətləri olmuş Hüsü Niftalı oğlu 1839-cu ildə Şuşanın Çölqala məhəlləsində dünyaya göz açıb. Papaqçılıqla məşğul olan atası yaxşı sənətkar kimi tanınıb. Hüsü ilk təhsilini molla məktəbində alıb və elə bu dövrdən onun məlahətli səsinin olduğu aşkara çıxıb. Şuşada yaratdığı məktəbdə bir çox xanəndəni yetişdirən Xarrat Qulu onun səsini, musiqi duyumunu yoxlayıb, qeyri-adi istedadını bəyənib və məktəbə qəbul edib.

Görkəmli musiqişünas Firidun Şuşinski araşdırmalarının birində yazıb: "Azərbaycan vokal sənətinin görkəmli nümayəndəsi olan Hacı Hüsü, sözün həqiqi mənasında, böyük xanəndə olub. O, xanəndəlik sənətində yeni bir dövr açıb. Eyni zamanda bu sənəti yüksək bir məqama çatdırıb. O, nəinki muğam oxumaqda, eyni zamanda milli Azərbaycan musiqisinin bütün sahələrində böyük ustad olub. Qədim xalq musiqisini sonsuz bir məhəbbətlə sevib. Şərq, eləcə də Azərbaycan səhnəsi lirik dramatik, tenor tipli səslər çox görüb. Lakin Şərqdə Hacı Hüsünün səsi kimi hərtərəfli tembr gözəlliyinə malik ikinci bir incə və təravətli səs olmamışdır".

Mənbələrin yazdığına görə, 1880-ci ildə İran hökmdarı Nəsrəddin şah Hacı Hüsünü Təbrizə, oğlunun toyuna dəvət edir. Məşhur İran musiqiçilərinin də çıxış etdiyi toy ziyafəti başa çatanda şah tərəfindən ən ali mükafat Hacı Hüsüyə verilir.

Sevimli müəllimi Xarrat Qulu dünyasını dəyişəndən sonra Hacı Hüsü tanınmış maarifçi Mir Möhsün Nəvvabla görüşərək ustadının xatirəsini yaşatmaq, musiqi məclisi yaratmaq fikrini ona açıqlayır. Beləliklə, Şuşada "Musiqişünaslar məclisi"nin əsası qoyulur. Məclisin üzvləri sadəcə çalıb-oxumaqla kifayətlənmir, həmçinin muğam sənətini inkişaf etdirir və davamçılarını yetişdirirlər. Bəzi araşdırmalarda oxuyuruq ki, Hacı Hüsü ilk dəfə olaraq Şuşada "Xanəndələr ittifaqı" da yaradıb. Onun üzvləri arasında dövrün tanınmış ifaçılarından Keçəçioğlu Məhəmməd, Malıbəyli Cümşüd, Məşədi İsi, Cabbar Qaryağdıoğlu, Malıbəyli Həmid, Məşədi Məmməd Fərzəliyev və başqaları olub.

Qarabağın musiqi beşiyi adlandırılan Şuşada musiqişünaslığın tədqiqi ilə məşğul olan hər kəs böyük qürur hissi ilə bildirir ki, Hacı Hüsü Şərq klassiklərinin qəzəllərini böyük şövqlə, ilham və məhəbbətlə oxuyub. Bu səbəbdən də xalq arasında "gözəllik aşiqi" adlandırılıb, hətta haqqında əfsanə və rəvayətlər də yaranıb. O, muğamlar üzərində günlərlə, həftələrlə çalışar, onları təkmilləşdirər, yeni-yeni guşələr və xallar əlavə edərmiş. Mənbələrdə göstərilir ki, o, "Rast", "Şur", "Mahur" və başqa muğamlara bənzərsiz yeniliklər gətirib. Musiqişünas F.Şuşinski "Qarabağ xanəndələri" kitabında yazıb: "O, "Kürdü" muğamına "Şahnaz"ı əlavə edərək birlikdə "Kürdü-Şahnaz" oxuyub".

Cəlilbəy Bağdadbəyov "Qarabağ xanəndələri haqqında xatirə" kitabında belə qeyd edib: "Hacı Hüsü oxuyarkən uzaq məhəllələrdən gəlib bu cazibəli səsə qulaq asardılar. Onun uzun nəfəsi, bənzərsiz zəngulələri var idi..."

Görkəmli sənətkar ömrünün müdrik çağlarında Həcc ziyarətində olur. Bundan sonra toy məclislərində oxuması xurafatçılar tərəfindən birmənalı qarşılanmır. O, bunlara əhəmiyyət vermədikdə bəzən ruhanilərin təzyiqlərinə məruz qalır. Hacı Hüsü uzun müddət Şuşada Gövhər ağa məscidində azan çəkərək içindəki yanğını minacatla söndürərmiş. Hərdən minbərdə əvvəlkitək ucadan "Segah" da oxuyar, zilə qalxar və zəngulələri ilə hər kəsi heyrətləndirərmiş.

Ötən ilin sonlarında Özbəkistan portalının Azərbaycan muğamları haqqında dərc etdiyi məqalədə məşhur "Qatar" muğamının Şuşada Hacı Hüsü tərəfindən yaradıldığı bildirilir. Belə ki, xanəndə Qatar kəndindən Şuşaya gəldiyi üçün muğam da bu kəndin adı ilə tarixə düşüb. Bu muğamı sonralar Cabbar Qaryağdıoğlu, Məşədi Məmməd Fərzəliyev, Şəkili Ələsgər, Segah İslam, Cahan Talışinskaya və digər xanəndələr ifa ediblər.

Ömrünün sonlarında Türkmənistanın Aşqabad şəhərinə köçən Hacı Hüsü burada 1898-ci ildə 59 yaşında haqq dünyasına qovuşub. Klassik musiqi sənətində adı daim hörmətlə xatırlanan ustadı xalqımız heç vaxt unutmur.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

Bu müharibə hekayətini İkinci Qarabağ savaşında yaralanıb ordudan tərxis olunmuş bir döyüşçü danışıb. Daha doğrusu, birgə iştirak etdiyimiz tədbirdə gənclərə müharibə xatirələrini danışanda eşitmişdim.

Məlumdur ki, müharibənin hər anı qeyri-adi hekayətlərlə əbədiləşir. Bu müharibə əhvalatlarını çox vaxt maraqla dinləsək də, bəzən təbii hesab edir, bəzən ölümlü sonluqlara görə təəssüflənir, bəzən də gənclərimizin qəhrəmanlıqlarından qürurlanırıq. Beləcə, müharibə bizim yaddaşımızda yaşamaqda davam edir.

Amma istefada olan hərbçimizin danışdığı "Lələtəpə Səltənəti" əhvalatı həm də adına görə diqqətimi cəlb etdi. Necə yəni Lələtəpə Səltənəti?

Bu ifadəni unuda bilmirdim. Elə hey yaddaşımda dövr edir, məndən ayrılmırdı.

Səltənət könüllü olaraq şəfqət bacısı kimi şərəfli bir missiya ilə müharibədə iştirak etmiş gənc azərbaycanlı qızın adıdır.



# Lələtəpə Səltənəti

## Vətən müharibəsinin yeganə xanım şəhidi Arəstə Baxışovanın unudulmaz xatirəsinə ithaf

HEKAYƏ

❖ ❖ ❖

İkinci Qarabağ savaşı nə qədər gözlənilən olsa da, insanların düşüncəsində şimşək kimi çaxdı. Müharibənin başlanma xəbərini hərə bir cür qarşıladı. Bu xəbərdən sonra elə bil ki, hər kəs özü haqqında düşünür, mövqeyini seçirdi.

Səltənət universitetin birinci kursunda, hüquq fakültəsində oxuyurdu. Atası Murtuza Zərgərli polis mayoru idi, Bakının rayonlarından birində işləyirdi. Murtuza arvadı Fatimə ilə çiyin-çiyinə iki oğul, bir qız böyütmüşdü. Oğlanlarını yerbəyer etmişdilər, hər ikisi ev-eşik sahibi olmuşdu. Murtuza Zərgərli də oğlanlarının fərasətinə baxıb qürurlanır, arvadına da hərdən sataşırdı:

- Görürsən, ataya çəkmək belə olar.

- Nə olar, lap yaxşı. Deyirsən, mənim heç payım yoxdu?, - bunu da Fatimə əri Murtuza Zərgərlinin sözünü cavabsız qoymamaq üçün deyirdi.

- Yox e, mən sənin zəhmətini danmıram, Fatimə. Amma...

- Daha nə amma? Sözünün Məmmədvəlisini de.

- Deyirəm e, Fati, elə deyil ki, səndən gizləyim.

- Yaxşı, açıq danış, canım, - Fatimə evdə çox vaxt ərinə elə "canım" deyirdi.

Murtuza Zərgərli də arvadının ona "canım" dediyinin arxasında nə dayandığını yaxşı bilirdi. Həmişə "canım" müraciətindən sonra aralarında tufan qopurdu.

İndi Murtuza Zərgərli söhbəti uzatmamaq üçün "amma"sını tez açıqlamalı oldu:

- Fatimə, elə bil "amma" yoxdu, ancaq mən bu qızdan nigaranam. Orta məktəbi qurtaranda, ad günlərində aldığımız hədiyyə, qızıl-zinət əşyalarına heç gözünün ucu ilə də baxmır. Orta məktəbi qurtaranda dedik həkim olsun. Dedi yox, mən hüquq fakültəsinə girəcəyəm.

- Nə olsun, canım, yaxşı ali təhsil alar. Özü də çox gözəl oxuyur. Bir işin qulpundan yapışar.

- Yox e, Fati, mən danışdırmışam, deyir, gərək prokuror olum.

Əlbəttə, bunu Fatimə də bilirdi, ona görə təəccüblənmədi:

- Olsun da. Prokuror olsun, dünya dağılacaq? O qədər qadın hüquq işçisi var ki, biri də bizim Səltənət.

Fatimə deyəsən söhbəti yekunlaşdırmaq istəyirdi. Amma Murtuza Zərgərli sözü bu yerdə bitirmək fikrində deyildi. Qızı sarıdan narahatlığını axıracan çatdırmaq fikrində idi:

- Nə deyirəm, olsun. Axı orta məktəbi bitirəndə gələn elçilərə də "yox" dedi. Gül kimi oğlanlar idi. Ataları da yaxşı iş-güc sahibləri.

- Nə bilim, canım, qoy görək də...

Murtuza Zərgərli daha söhbəti uzatmadı. Geyinib evdən çıxdı.

❖ ❖ ❖

Axşamtərəfi idi. Qızı indilərdə qapını açacaqdı. Fatimə narahat deyildi. Onun yeməyini hazırlayıb mətbəxdə hər cür tədarük görmüşdü. Ona görə də televizorun qabağında yerini rahatladı, çoxdan bəri izlədiyi seriala baxmaq niyyətində idi.

Elə ananın düşündüyü kimi, bu vaxt qapının zəngi çalındı. Fatimənin bir gözü televizorda idi. Serialın adı artıq ekranda görünürdü. O tez qapıya gedib zənciri çəkdi, açarı burdu. Qapı açılan kimi qızı Səltənət qapının ağzında onunla üzbəüz gəldi.

Səltənətin qeyri-adi görkəmi Fatimənin nəzərlərindən yayınmadı. Elə bil ki, qız pörtmüşdü. Nəysə bir təlaşı da hiss olunurdu.

- Nə olub, ay qızım, niyə bu görkəmdəsən?

- Nə görkəmdəyəm ki?

- Yox, yox. Mən görürəm, sən həyəcanlısan. Nəsə təlaşın var. Bəlkə küçədə, yolda kimsə...

- Ay ana, elə bir şey yoxdur.

- Yaxşı, gəl, gəl içəri. Naharın hazırdır, mətbəxə keç.

- Yox, əvvəlcə bir üzümə su vurum.

- Hə, nə olar, lap yaxşı. - Fatimə daha ekranın qabağına qayıtmadı. Çünki qızının təlaşından narahat olmuşdu. Səltənət yuyunub qurulandı. İndi yadına düşdü ki, heç günorta da heç nə yeməyib.

Fatimə qızının arxasınca mətbəxə gəldi. Ona yemək çəkdi.

Anasının bişirdiyi şorbadan bir-iki qaşıq aldı. Çörəklə pomidor-xiyar salatı da yedi. Deyəsən, özünə gəldi. Anasının nigaran baxışlarından anladı ki, o, Səltənətin söhbətini gözləyir. Birdən qaşığı nimçənin kənarına vurmaqla sanki tərəddüdlərini qovdu. Anası ilə açıq danışmaq qərarına gəldi:

- Ana, bilirsən də, neçə gündür müharibə gedir. Bu, əvvəlki savaşlara bənzəmir. Açıq-aşkar hiss olunur ki, bu savaşda Vətənin taleyi həll olunur.

- Vətənin taleyinin sənə nə dəxli, ay bala? Sən ki, kişi deyilsən?..

- Necə yəni mənə nə dəxli? Mən bu Vətənin övladı deyiləm? Axı Vətənin müqəddəratı həll olunanda nə kişi, nə qadın?

- Olsun, lap yaxşı. Biz də nigaranıq. Atan deyir ki, gərək müharibəyə də kömək edək. Yəqin ki, bu yaxın günlərdə maaşından ayıracaq. Əsgərlər üçün vacib olan şeyləri alıb göndərəcək.

- Yox e, ana, bu can savaşıdır, nəsə alıb göndərməklə işimiz bitir ki?

- Axı bunların sənə nə dəxli?, - Fatimə lap darıxdı, - bizə dua etmək qalır. Dua edərik ki, əsgərlərimizə Allah kömək olsun.

- Biz özümüz kömək etməsək, Allah nə kömək edəcək?

- Atan kimi söhbəti çox uzatma, sözünün "Mustafasını" de.

- Hə, madam ki, belə oldu, mən sözümün "Mustafasını" deyirəm. Müharibəyə gedəcəm. Qrupumuzdan bir neçə qızla danışmışıq. Lap doğrusunu bilmək istəsən, çağırış məntəqəsinə gedib ərizə də yazmışıq.

- Vay, biz ölmüşük ki, sən özbaşına gedib ərizə yazasan?

- Ana, söhbət bitdi. Mənə xeyir-dua ver, "yaxşı yol" dilə...

Murtuza Zərgərli axşam evə gələndə söhbət bir də təzələndi. Ərinin əsəbi davranışı da vəziyyəti dəyişə bilmədi. Bircə onu dedi ki, bu kimə çəkib, mən bilmirəm. Və bu sözləri deyəndə, əlbəttə, arvadı Fatiməni də başdan-ayağa gözdən keçirdi. Fatimə də çiyinlərini çəkdi.

Murtuza bir az sakitləşdi. Əslində, sakitləşməmişdi, özünü zor-güc ələ almaq istəyirdi. Səsinin də əsəbi tövrünü dəyişərək söhbəti mübahisədən çıxarmaq niyyəti ilə asta-asta dilləndi:

- Qızım, getmək üçün ərizə verib sonra bizi razı salacaqsan?! Bərəkallah! Amma eybi yoxdur, voyenkom mənimlə tanışdır. Zəng vurub başa salaram ki, qız lap uşaqdır, hələ neylədiyini bilmir. Özü də Bakı Dövlət Universitetinin birinci kurs tələbəsidir. Heç kim onu dərsdən ayıra bilməz.

Səltənət ayağa qalxıb hirslə:

- Yox, ata, mən artıq qərarımı vermişəm.

Murtuza təcrübəli polis məmuru idi. İşlədiyi bu 30-35 ildə nə cür hadisə desən şahidi olmuş, nə cür üzlər desən görmüşdü. Ancaq doğma qızının gözəl üzündə gördüyü qətiyyəti indiyədək heç kimdə sezməmişdi. Ona görə də dönüb aciz-aciz arvadının üzünə baxdı:

- Fatimə, sən Allah, bu qız nə danışır?

- Sən məndən soruşursan?, - deyə Fatimə hirslə ərinin üzünə baxıb onun xeyli yumşaldığına etiraz əlaməti olaraq səsini bir az da qaldırdı:

- Sən məndən soruşursan, yoxsa mən səndən soruşuram?!

Əri də eyni hirslə:

- Əlbəttə, mən səndən soruşuram. Anası sən deyilsən məgər?!

Bu zaman qaçıb qonşu otaqda çarpayıda üzüüstə yıxılan Səltənətin ağlamaq səsi eşidildi və ərlə arvad sarsılmış halda bir-birlərinin üzünə baxdılar.

...Səltənət şəfqət bacısı kimi hərbi hissəyə gələndə artıq peşəsi üçün lazım olan bütün məlumatları öyrənmiş, hətta hərbi hospitalda da qısamüddətli kurs keçmişdi. Birhəftəlik hazırlıq ona bəs etmişdi.

Bu, o vaxt idi ki, Azərbaycan Ordusunun ön hissələri artıq Xudafərinə çatmaqda idi. Suqovuşanda da qanlı çarpışma gedirdi. Düşmənin sərt müqavimətinə baxmayaraq Suqovuşan da işğaldan azad edilmişdi.

Əlbəttə, ermənilər asanlıqla təslim olmaq fikrində deyildilər. Ona görə də Aprel döyüşlərində azad edilmiş Lələtəpəyə hücum planlaşdırırdılar. Onlar istəyirdilər ki, Lələtəpəni təzədən geri almaqla hücumda olan ordumuzun əlaqəsini kəsib hərbi hissələrimizi mühasirəyə salsınlar. Ancaq görünür, ermənilərin bu hiyləsindən komandanlığın xəbəri vardı. Ona görə də Lələtəpə istiqaməti kifayət qədər möhkəmləndirilmişdi. Artıq neçə gün idi ki, Lələtəpədə əsgərlər Səltənətin özünü tanımışdılar. Səltənət də bir yerdə sakit durmurdu. Ayrı-ayrı səngərlərə girir, əsgərlərin ovqatını soruşur, onlardan hal-əhval tuturdu.

Əlbəttə, belə görüşlər vaxtı gənc hərbçilər zarafatsız da ötüşmürdülər:

- Bu, Lələtəpənin Səltənətidir, biz onu düşmənə vermərik.

Səltənət də bu sözlərdən qürurlanırdı.

Sakitlik çox çəkmədi. Kəşfiyyatçılar xəbər gətirdilər ki, düşmən Lələtəpə istiqamətinə ağır toplar cəmləyir, minaatanları çəkib gətirirlər.

Komandir az vaxt içərisində səngərləri gəzdi. Əsgərlərin döyüş ruhunu müşahidə etdi. Səltənət də onun yanında idi. Gənc qız hansı səngərə ayaq qoyurdusa, elə bil ki, əsgərlərin üzünə gün düşürdü. Hətta kiminsə həyəcanı olsa belə tez-tələsik özünü cəmləyir və inamla dayandıqlarını nümayiş etdirirdilər.

...Axşam oldu, sakitlik hələ davam edirdi. Səhərə yaxın ilk mərmi partlayışı yeri-göyü tərpətdi. Dalınca da minaatanın səsi... Aləm bir-birinə qarışmışdı. Kimsə Səltənəti çağırdı:

- Bacı, hardasan?

Elə bil ki, Səltənət yerdən çıxdı:

- Mən buradayam, komandir.

Leytenant Qasımzadə qızın belə cəld cavabından az qala təəccübləndi. Xəyalından keçənləri dodaqaltı deməkdən də çəkinmədi:

- Elə bil ki, zalımın qızını anası elə səngər üçün doğub, - dedi. Sonra da şəfqət bacısını diqqətlə süzüb "səngərləri yoxla, gör yaralanan varmı? söylədi.

- Baş üstə, cənab komandir.

Səltənət əsgəri qaydada təzim edib səngərlərə tərəf qaçdı. Komandir hələ cavab atəşi açmaq haqqında əmr verməmişdi. Kapitan Həmidov düşmənin hərəkətini diqqətlə izləyirdi. Onsuz da hava işıqlaşmaqda idi. Düşmən özünə güvənli görünürdü. Çünki Lələtəpə boyunca dağın sinəsinə doğru piyadalar irəliləməkdə idilər. Kapitan Həmidov ona yaxınlaşan Qasımzadəyə mövqeləri göstərdi:

- Diqqətlə bax, qoy hələ bir az da yaxına gəlsinlər. Əsgərlərə xəbər ver ki, əmri gözləsinlər.

- Baş üstə, komandir, bildim, əmri gözləmək!..

Leytenant Qasımzadə sürətlə xəndək boyu irəliləyərək əmri gözləməyi tapşırdı.

Erməni əsgərləri çəyirtkə sürüsü kimi dağın sinəsinə daraşmışdılar. İrəliləyirdilər. Sərrast avtomat atəşləri məsafəsinə çatanda kapitan Həmidovun gur səsi eşidildi: "Atəş". Üç dəfə "atəş" sözünü təkrarladı:

- Atəş, atəş, atəş!

Ermənilərin ön dəstələri bir anda şil-küt oldu. Az-çox sağ qalanlar daldalanıb gizləndilər. Bu vaxt onlar yenidən top atəşlərinə rəvac verdilər. Doğrudur, bu atəşlərin çoxu səngərləri tutmurdu. Çünki kifayət qədər müdafiə tədbirləri görülmüş, xüsusilə top mərmilərinə davamlı beton örtüklər qurmuşdular. Səngərin önündə düzülmüş qum kisələrinə dəyən güllələr, mərmilər elə ordaca batıb qalırdı. Daha bir top mərmisi beton zirzəminin üstündə partladı. Qəlpələr ətrafa səpələndi. Əsgərlərimizin içindən kimsə inildəyib üzüüstə yerə düşəndə yaxınlıqdakı əsgər:

- Bacı, hardasan, gəl, yaralı var, - deyə çığırdı.

Səltənət yaxınlaşdı və sübhün işığında əsgərin tez yaxasını açıb qan axan yarasını spirtlə silməyə başladı və sonra tənziflə bağladı. Bədəni yarıçılpaq əsgər qızın ətirli nəfəsini duyub gözlərini açdı. Dumanlı gözlər zərif çöhrə, eləcə də yumşaq qız barmaqlarının təmasını duyub güclə də olsa gülümsədi:

- Bacı, ölürəm, hə, - dedi.

- Yox, nə danışırsan, kimdi səni ölməyə qoyan?, - deyə yaranı bağlayıb qurtaran Səltənət: - Yüngül bir şeydir, qan kəsildi, tərpənmə və dincəl, - deyə cavab verdi.

Və cəld çiynində tibb ləvazimatları ilə o biri yaralılara tərəf getdi.

Səhər açılmışdı. Düşmənlər mövqelərimizi görüb hər cür silahlardan və toplardan aramsız olaraq atəş açırdılar. Lakin mərmilər yenə ya uçub uzağa düşür, ya da aşağılarda partlayırdı. Yuxarıdan dəqiq nişanla açılan atəşlərdən sonra artıq düşmənin necə ağır itkilər verdiyini hamı görürdü. Lakin hücum edənlər də seyrəlmirdi. Arxadan köməyə yeni-yeni dəstələr gəlirdi, düşmənin də inadkarlığı göz qabağında idi.

- Komandirləri generaldır, azı bir diviziya üstümüzə gəlib, - deyə başını mövqedən çıxarmış əsgər: - uşaqlar aaa....

Əsgər sözünü axıra çatdıra bilmədi. Hansısa bir snayper gülləsi alnına sancılıb başının arxasından çıxmışdı.

Səltənət cəld yaxınlaşıb gənc çavuşun qan bürümüş üzünə baxdı və göz yaşlarını güclə boğaraq əsgərin üstünə əyildi. Kapitan Həmidov da gəlib əsgərin qan bürümüş başına baxdı və başını yelləyərək getdi. Yalnız indi özünə gəlmiş Səltənət əsgərin qana bulaşmış gözlərini örtdü. Sonra onun yerinə gələn başqa bir cavanla meyiti çəkib divara söykədilər.

Bugünkü döyüş belə bitdi, amma hiss olunurdu ki, düşmən məqsədindən geri çəkilmək niyyətində deyil. Kapitan Həmidov gecə növbələrini təşkil etdi. Yaralılar hospitala göndərildi. Şəhidlər xüsusi ehtiramla maşınlara qoyulub ünvanlarına yola salındı.

Axşamdan nə qədər keçsə də, Səltənət hələ də döyüş yerinin yaxınlığındakı tibb məntəqəsinə getməmişdi. Yüngül yaralanmış əsgərlərdən tələb edirdi ki, müalicəyə getsinlər. Amma bu yüngül yaralı gənc əsgərlər yenə zarafatlarından qalmırdılar.

"Biz Lələtəpə Səltənətini qoyub heç yerə gedə bilmərik".

"Bura Səltənətin ən alınmaz qalasıdır".

"Nahaq yerə biz buranın adını Lələtəpə Səltənəti qoymamışıq ki..."

Səltənət bu sözlərdən qürurlandığı kimi, həm də sevinirdi. Artıq o, inanmışdı ki, düşmən lap nə qədər qüvvə gətirsə də, Lələtəpəni tuta bilməyəcək.

Beləcə növbəti səhər açılırdı. Yenə top mərmiləri gurlayır, minaatanlar nərildəyirdi. Kapitan Həmidov demək olar ki, bütün gecəni yatmamışdı. Ətrafa kəşfiyyatçılar göndərmiş, düşmənin sabaha hazırladığı planı öyrənməyə çalışmışdı.

Lələtəpənin strateji mövqeyi elə idi ki, buradan ətraf əl içi kimi görünürdü. Düşmən başqa heç bir plan qura bilməzdi. Erməni vəhşilərinin yeganə ümidi qüvvə üstünlüyü ilə Lələtəpəni tutmaq ola bilərdi. Alatoranlıqda ətrafı binoklla izləyən Həmidov yanındakı leytenant Qasımzadəyə tapşırıq verdi:

- Yəqin ki, düşmən yenə top atəşlərini davam edəcək.

Leytenant Qasımzadə tez dilləndi:

- Bəli, komandir, onlar elə bilirlər ki, top atəşləri ilə bizim müqavimətimizi qıracaqlar.

- Qoy elə bilsinlər. Bizim yerimiz kifayət qədər möhkəmdir. İtkilərimiz də ola bilər, ancaq onlarla müqayisədə çox az olacaq.

Deyəsən, heç komandir Həmidov sözünü qurtarmamış daha bir top mərmisi lap yaxında partladı. Daha bir əsgər çiynindən yaralanmışdı. Kapitan Həmidov əsgəri aşağı çəkdi. Səltənət artıq onun yanında idi. O, yaralı əsgərin paltarını dartışdırıb birtəhər əlinə yer elədi. İri bint parçasını yaranın üstünə basdı. İndi mərmilər xeyli aralıda partlayırdı.

Kapitan Həmidov gözucu Səltənətin yaralı əsgərə yardımına baxdı. Vaxt az idi. O, bıçağını çıxarıb əsgərin paltarının yaxasını bıçaqla kəsib açdı. Və onu şəfqət bacısının yanında qoyub digər səngərə tərəf qaçdı.

Əsgər gözlərini açıb başı üstünə əyilən gözəl qız çöhrəsini görəndə gülümsədi.

- Bacı, - dedi.

- Eşidirəm, - Səltənət də güclə gülümsədi, - üzünü yana çevir.

Səltənət istəyirdi ki, əsgər yarasını görməsin. Əsgər bir qədər yana çevrildi. Elə bu vaxt harasa dəyib çovuyan bir mərmi düz onun ürəyinin başına sancıldı.

Mərmi Səltənətə də dəyə bilərdi. Əlbəttə, təsadüfən yan keçmişdi.

Səltənətin gözləri böyüdü. Tez əsgərin üstünə əyildi. Elə bil ki, nəfəsi ilə artıq titrəməkdə olan bədəni qızdırmaq istəyirdi. Bu gənc əsgər isə Səltənətə deyəcəyi sözlərlə birgə əbədiyyətə qovuşmuşdu.

Səltənət şəhidi səngərin kənarına çəkdi. Onu divara söykədi. Elə bil ki, bununla əsgərin ölümü ilə barışmaq istəmədiyini bildirirdi.

Ümumiyyətlə, döyüş vaxtı həlak olan əsgəri bir tərəfə çəkib söykəmək əbədi ehtiram əlamətidir. Səltənət sonuncu dəfə gözlərinin qabağında həlak olmuş əsgərə baxıb digər yaralılara tərəf qaçdı. Əlbəttə, o, həmin əsgərin yanında hönkürtü ilə ağlamaq istəyirdi, ancaq buna vaxt yox idi.

Deyəsən, düşmən bütün imkanlarını səfərbər edib Lələtəpə mövqelərini lap əlbəyaxa döyüşlə olsa da, tutmaq istəyirdi. Görünür, təzə qüvvələr də gətirmişdilər. Onlar sürünə-sürünə səngərlərə yaxınlaşmaqda idilər. Hər tərəfdən "atəş, atəş" səslərini erməni əsgərləri də eşidirdi. Onlar çaş-baş qalmışdılar. Görünür, elə bilirmişlər ki, top mərmiləri və minaatanlarla səngərləri susdurublar. Ön sıralar çox asanlıqla biçildi. Lap səngərlərə yaxınlaşanlar qumbaralara "qonaq edildi". Düşmən əsgərləri bu hücumun da uğursuz olduğunu görüb üzüaşağı qaçmağa başladılar. Əsgərlərimizin avtomat atəşləri ilə bu pərakəndə qaçış da "mükafatlandırıldı".

Gün günortaya yaxınlaşırdı. Düşmənin gözlə görünən çoxlu meyiti Lələtəpənin sinəsi boyunca döşəli qalmışdı. Nisbətən yüngül yaralılar sürünüb gedirdi. Düşmən nə meyidləri, nə də yaralıları daşıyıb aparmağa cəsarət etmədi. Beləliklə, Lələtəpə ətrafında düşmən sarsıdıcı zərbə aldı. İki günlük döyüşün nəticəsi hərbi təsəvvürlərlə desək, çox uğurlu idi: 5 şəhid, 12 yaralı. Beləcə Lələtəpə Səltənəti özünün qala gücünü göstərdi.

Səltənət yavaş-yavaş öz səngərinə doğru getdi. Gördüyü ölümlər, əsgərlərin gülümsər çöhrələrində əbədiləşən həyat işığı onun gözlərinin qabağında idi. Və Səltənət bir daha belə qənaətə gəldi ki, şəhidlər heç vaxt ölmürlər. Onlar gözlərindəki həyat işığı ilə əbədi dünyaya köçürlər.

Gənc qızın iradəsi sözünə baxmırdı. İxtiyarsız olaraq gözlərindən axan yaş yeməyinə qarışmaqda idi. Bu ağır təəssürat onunla nə qədər gedəcəkdi, bilmirdi.

Səfərbərliyə gələndə bircə anası onu yola salmağa gəlmişdi. Elə indi də ancaq anası gözlərinin önündə görünürdü. Qeyri-ixtiyari pıçıldadı: "Ana, qorxma. Mən qayıdacağam". Sonra daha yuxuya necə getdiyindən heç xəbəri olmadı.

Birdən "ura" səsləri onu yuxudan oyatdı. Əvvəlcə nə olduğunu başa düşmədi. Amma tez anladı ki, bu, əsgərlərin qələbə hayqırışlarıdır. Kəşfiyyatçılar xəbər gətirmişdilər ki, düşmən ölənlərini və yaralılarını döyüş meydanında qoyub, ərazini tərk edib.

Lələtəpə döyüşündəki ikinci qələbə ilə, - birinci qələbə Aprel döyüşlərində olmuşdu, Lələtəpə düşməndən azad edilmişdi, - düşmənin ordumuzun hissələrini Arazboyunda mühasirəyə almaq cəhdi puça çıxarıldı.

Bir sözlə, düşmənin Füzuli və Cəbrayıl rayonlarını yenidən nəzarət altına almaq niyyəti heç oldu. Lələtəpə savaşında düşmənin aldığı zərbə Azərbaycan Ordusunun nəyə qadir olduğunu bir daha təsdiq etdi.

Kapitan Həmidov vəziyyəti təhlil edib yuxarıya dəqiq və aydın məlumat verdi: "Tapşırıq yerinə yetirildi, Lələtəpə Səltənəti alınmaz qala olaraq qalır".

Kapitanın da "Lələtəpə Səltənəti" ifadəsini işlətməsi əsgərlərin şən gülüşlərinə qarışdı...

Az keçmədi ki, komandanlıqdan təzə xəbər gəldi. Kapitan Həmidov "Azərbaycan Bayrağı" ordeninə, leytenant Qasımzadə, eləcə də qazilər və şəhidlər müxtəlif təltiflərə layiq görülmüşdülər. Şəfqət bacısı Səltənət Zərgərlinin sinəsini isə "İgidliyə görə" medalı bəzəyəcəkdi...

Xəbər əsgərləri çox sevindirdi. Xüsusilə Səltənətin adını eşitmək onları lap qanadlandırdı. Bir ağızdan hər tərəfdən səslər eşidildi: "Yaşasın Lələtəpə Səltənəti!", "Yaşasın qəhrəman şəfqət bacımız!"

Səltənət də bəxtiyarlıqla gülürdü. Ancaq həmin anda onun nə üçün güldüyünü, niyə sevindiyini soruşan olsaydı, "hamı sevinir, mən niyə sevinməyim" deyərdi.

❖ ❖ ❖

*Leytenant Qasımzadə sonrakı döyüşlərdə də iştirak etmiş, "kapitan" rütbəsinə yüksəlmiş, daha sonra yaralanıb tərxis olunmuşdu. Onun həyatının hər günü beləcə yaddan çıxmayan hekayətlərlə dolu idi...*

*Oddan-alovdan keçmiş bu qazidən çətin də olsa, bir sualıma da cavab verməyi xahiş etdim. Kapitan Həmidovun və Səltənət Zərgərlinin sonrakı döyüş taleyini soruşdum. Qasımzadənin gözləri doldu. Nəsə demək istəsə də, qəhərdən boğuldu. Xeyli susdu, gərginlikdən üzünün əzələləri səyridi. Handan-hana "Əsas odur ki, Qarabağ azaddır" dedi...*

**Hüseynbala MİRƏLƏMOV**

# Azərbaycanın daha çox elektrik enerjisi ixrac etmək potensialı var

*Əvvəli 1-ci səh.*

Bu da təsadüfi deyildi. Çünki düşmən ərazilərimizin hər qarışına mina basdırmışdı. Məqsəd həmin yerlərə qayıdışımızı əngəlləyərək mümkün qədər gecikdirmək idi. Buna baxmayaraq, bərpa-quruculuq işləri elə sürətlə həyata keçirilməyə başladı ki, hər kəs xalqımızın əzmkarlığına heyran qaldı. Məsələn, Füzuli hava limanı cəmi 8 ay ərzində tikilərək istifadəyə verildi. Hazırda Qarabağ və Şərqi Zəngəzurun hər yerində qızğın iş gedir. Artıq "Zəfər yolu" daxil yüz kilometrlərlə avtomobil yolu istismara verilib, Zəngilanın Ağalı kəndində "ağıllı" yaşayış məntəqəsi salınıb, elektrik yarımstansiyaları tikilib, tarixi abidələrin bir çoxu bərpa olunub və s.

Ümumiyyətlə, işğaldan azad edilmiş ərazilərin bərpası, oraya qayıdacaq insanlar üçün normal yaşayış şəraiti yaradılması məqsədi ilə bütün infrastruktur layihələri paralel həyata keçirilir. Onların hər biri vacib olsa da, enerji layihələrinin icrası daha önəmlidir. Çünki digər infrastrukturun fəaliyyət göstərməsi üçün elektrik enerjisi vacibdir. Məsələn, Füzuli hava limanın tikilib istifadəyə verilməsi yalnız fasiləsiz enerji təminatı ilə mümkün olmuşdur.

Bu səbəbdən sözügedən ərazilərdə elektrik enerjisi infrastrukturunun yaradılmasına xüsusi diqqət yetirilir. Ötən il Prezident İlham Əliyevin iştirakı ilə Laçındakı "Güləbird" Su-Elektrik Stansiyasının, "Suqovuşan-1" və "Suqovuşan-2" kiçik su-elektrik stansiyalarının yenidənqurmadan sonra açılışı olmuşdur. "Kəlbəcər-1" Kiçik Su-Elektrik stansiyasında işlər tamamlanmışdır. Bununla yanaşı, azad olunmuş ərazilərdə 110/35/10 kV-luq rəqəmsal yarımstansiya tikilmiş, "Şuşa", "Şükürbəyli", "Kəlbəcər", "Cəbrayıl", "Zəngilan", "Qubadlı" yarımstansiyaları istismara verilmişdir. Ağdamda iki yerdə inşa edilən 110/35/10 kV-luq "Ağdam-1" və "Ağdam-2" yarımstansiyalarında, o cümlədən "Qarabağ" Regional İdarəetmə Mərkəzində də tikinti işləri tamamlanmışdır.

Qarabağ və Şərqi Zəngəzurda tikilən 9 yarımstansiyanın hamısı ölkənin ümumi enerji sisteminə qoşulmaqla yanaşı, həm də tam rəqəmsallaşdırılmışdır. Belə ki, işğaldan azad edilən ərazilərdə IV Sənaye İnqilabına uyğun olaraq intellektual enenrji sistemi konsepsiyası həyata keçirilməklə, müasir, dayanıqlı, rəqəmsallaşdırılmış yarımstansiyalar modeli formalaşdırılmışdır. Bunun sayəsində istismara verilən yarımstansiyalarda aktivlərin, proseslərin, resursların idarə edilməsi, açılıb qoşulma əməliyyatları, tədarük və paylanma zəncirlərinin təkmilləşdirilməsi, qüsurların vaxtında aradan qaldırılması proqram təminatı vasitəsilə avtomatik həyata keçirilir.

Cari ildə də bu ərazilərdə enerji infrastrukturunun yaradılması işləri davam edəcək. Həmin yerlərdə 5 yeni su-elektrik stansiyası inşa ediləcək ki, bu da ümumi enerji potensialımızı daha da gücləndirəcək.

Məlum olduğu kimi, indi dünyada ətraf mühitə zərər verməyən bərpaolunan enerjidən istifadəyə böyük diqqət yetirilir. Bizim neft-qazla yanaşı, bu sahədə də potensialımız yüksəkdir. Odur ki, dövlət tərəfindən Qarabağ və Şərqi Zəngəzurda "yaşıl enerji" zonası üçün konseptual proqnoz hazırlanıb. Bu ərazilərdə bərpaolunan mənbələrin potensialının beynəlxalq qiymətləndirilməsi aparılıb və ilkin rəqəmlər ümidvericidir. Belə ki, burada külək enerjisinin potensialı 7200 meqavat, günəş enerjisinin isə 2000 meqavatdan çoxdur. Uzun illər ölkəmizdə neft-qaz sahəsində fəaliyyət göstərən bp şirkəti Cəbrayıl rayonunda 200 meqavatdan çox gücə malik bərpaolunan enerji mənbəyinin tikintisinə maraq göstərir.

Prezident İlham Əliyev bu il fevralın 4-də Bakıda "Gülüstan" sarayında "Cənub qaz dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 8-ci toplantısında ölkəmizin bərpaolunan enerji sahəsindəki potensialının yüksək olduğunu bildirərək demişdir: "Bizim həmçinin Xəzər dənizinin qiymətləndirilməsinə dair xüsusi proqramımız var. İlkin rəqəmlər göstərir ki, Xəzər dənizinin texniki potensialı 150 min meqavatdan çoxdur. Artıq biz bu potensialın inkişafı ilə bağlı aparıcı beynəlxalq enerji şirkətlərindən müəyyən ilkin təkliflər almışıq".

Dövlət başçısı ölkəmizin enerji ilə təminatda yüksək nailiyyətlər əldə etdiyini bildirərək qeyd etmişdir ki, Davos Dünya İqtisadi Forumunun qiymətləndirilməsinə əsasən, enerjiyə əlçatanlıq reytinqinə görə dünya üzrə ikinci yerdəyik. Dövlət tərəfindən enerji infrastrukturunun yaradılması üçün böyük həcmdə vəsait qoyulub. Yeni elektrik stansiya və yarımstansiyaları tikilib və elektrik xətləri çəkilib.

Bu gün Azərbaycan enerji ilə təkcə özünü tam təmin etmir, enerji ixrac edən ölkə kimi də tanınır. Bu sahədə ölkəmizin potensialı yüksəkdir. Odur ki, ölkəmiz ixracatın həcmini daha da artırmaq niyyətindədir. Hazırda Azərbaycan Türkiyəyə, Rusiyaya, Gürcüstana və İrana elektrik enerjisi ixrac edir. Məqsəd isə daha çox həcmdə elektrik enerjisi ixrac etməkdir. Prezident İlham Əliyev AZƏRTAC-a müsahibəsində bu barədə demişdir: "Bu gün hər kəs görür ki, dünyada iqtisadi, maliyyə böhranı hələ də başa çatmayıb. Buna baxmayaraq, Azərbaycanda öz vəsaiti hesabına inşa edilən bu nəhəng obyektlərin istifadəyə verilməsi həm maliyyə imkanlarımızı göstərir, maliyyə müstəqilliyimizdən xəbər verir, texniki imkanlarımızı göstərir və onu göstərir ki, son illərdə elektrik enerjisi sahəsində çox böyük işlər görülüb, bu işlərin yenə də davamı var. Çünki artan tələbat - həm daxili tələbat, həm xarici tələbat, artan ixracımız bunu diktə edir. Onu da bildirməliyəm ki, keçən il Azərbaycanda 27 milyard kilovat/saat elektrik enerjisi istehsal edilmiş və 1,6 milyard kilovat/saat ixrac olunmuşdur. Bu, rekord göstəricidir. Yəni biz artıq çox ciddi elektrik enerjisini ixrac edən ölkəyə çevrildik. Qeyd etdiyim kimi, həm daxili tələbat, həm də xaricdə enerji gücümüzə olan tələbat bizi yeni addımların atılmasına sövq edəcək".

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***






# Sürücülük: ilk tələblər, cərimələr

*Dünyanın ilk rəsmi sürücülük vəsiqəsi*




Sürücülük qabiliyyətini təsdiq edən, müxtəlif kateqoriyalar üzrə nəqliyyatların idarəetmə bacarığını sübuta yetirən sürücülük vəsiqəsi avtomobilə əyləşildiyi andan mütləq sahib olunmalı sənəddir. Maşının ixtirası sürücülük vəsiqəsinin yaranmasının xəbərçisi idi.

İddialara görə, avtomobilin ixtiraçısı olan Karl Benz ilk sürücülük vəsiqəsinin də sahibi olub. O, "Motorwagen"i ilə küçələrdə hərəkət edərkən xoşagəlməz səs-küyə səbəb olurdu. Buna görə də əhali bu vəziyyətə etirazlarını bildirirdi. Benz yollarda rahat hərəkət edə bilmək üçün yerli qurumlardan sərbəst idarəetmə icazəsi verilən sənəd almışdı. Bu sənədə əsasən sürət yaşayış məntəqələrindən kənarda 12 km/saatdan, yaşayış məntəqəsi hüdudlarında və kəskin dönüşlərdə isə 6 km/saatdan çox olmamalı idi. Digər nəqliyyat vasitələri, atlılar və yük arabaları ilə qarşı-qarşıya gələrkən də sürət azaldılmalı idi.

Dünyanın ilk rəsmi sürücülük vəsiqəsi 1893-cü il avqustun 14-də Parisdə təqdim edilib. Onu verən şəxs Parisdə polis məmuru olan Lui Lepin idi. İlk vaxtlarda vəsiqələr imtahansız təqdim edilirdi, onları əldə etmək üçün namizəd yalnız polisə öz avtomobilini idarə etmək qabiliyyətini nümayiş etdirirdi. Yalnız 6 il sonra, 1899-cu ildə Fransada ilk sürücülük imtahanı meydana çıxdı və imtahandan keçənlər "sürücülük üçün yararlılıq sertifikatı" əldə etdilər.

Hazırda bir sıra ölkələrdə sürücülük üçün imtahan qaydaları fərqlidir. Bəzi ölkələrdə imtahanın nəzəri hissəsi test üsulu ilə keçirildiyi halda, digərlərində namizəd şifahi formada yol qaydaları haqqında ona ünvanlanmış sualları cavablandırır. Növbəti praktiki hissədə isə mexaniki və ya avtomat sürətlər qutusuna malik avtomobillərdə sınaq sürüşü həyata keçirilir. Müxtəlif ölkələrdə vəsiqənin əldə olunması üçün minimum yaş həddi də müxtəlifdir.

*Sürücülük qaydaları, ilk cərimələr*

Avtomobillər çoxaldıqca yerli hökumətlər toqquşmaların qarşısını almaq və təhlükəsizliyi təmin etmək üçün yol hərəkəti qaydalarını tərtib etməyə başladılar. Avtomobillərin məcburi qeydiyyata alınması ABŞ-da ilk yol hərəkəti qaydalarından biri oldu. Nyu York 1901-ci ildə bu qaydanı tətbiq edən ilk şəhərdir.

İlk yol qaydaları haqqında kitabın müəllifi isə Uilyam Eno olub. Onun 1903-cü ildəki "Yol qaydaları" kitabında yavaş hərəkət edən avtomobillərin sağ tərəflə hərəkət etməsi, piyada keçidləri, dayanma nişanları, təhlükəsizlik adacıqları və s. ilə bağlı məqamlar qeyd olunmuşdu. Lakin o, işıqforların heç vaxt işləməyəcəyinə və kəsişmələrdə polisin hər zaman lazım olacağına inanırdı. Amma bu iddiasında yanılmışdı.

Dünyanın ilk cərimələnən şəxsi isə ingiltərəli Valter Arnold adlı sürücü olub. O, 3 km/saat sürətli yolda həddi 4 dəfə aşaraq 12 km/saat sürətlə hərəkət edib. Bunu qeydə alan yol polisi sürücünü təqib edərək qaydalara əməl etmədiyini bildirərək onu 1 şillinqlə cərimələyib. Əslində, təyin edilən bu sürət olduqca aşağı idi, lakin Arnold cərimədən yayına bilməmişdi. Etirazlar nəticəsində həmin il qaydalara yenidən baxılmış və maksimal hədd 22 km/saata qədər təyin edilmişdi.

*Təhlükəsizlik kəməri*

Sükan arxasında əyləşərkən maşını hərəkətə gətirməzdən əvvəl diqqət yetirməli olunan vacib məsələ kəmərləri bağlamaqdır. Bu ideyanın kəşfi ilə bir çox insanın həyatı xilas edilib. Avtomobillərdə təhlükəsizlik kəmərləri ilk dəfə 1900-cü illərin əvvəllərində Amerikada peyda olub, lakin onlar qəzalara qarşı təhlükəsizlik tədbiri kimi deyil, sərnişinlərin kələ-kötür gəzintilər zamanı yıxılmaması üçün nəzərdə tutulmuşdu. Həmçinin həmin dövrdə qəzaların baş verməsi aktual xarakter daşımırdı.

Kəmərlərin bağlanmasına 1920-ci illərdə təyyarələrdə, daha sonra isə yarış avtomobillərində daha çox rast gəlinməyə başlandı. Lakin 1930-cu ilə qədər bunun zəruriliyi vacib sayılmırdı. Nəhayət, ABŞ həkimləri kəmərləri sınaqdan keçirib uğurlu nəticələr əldə etdikdən sonra istifadəsinə nəinki icazə verildi, həm də zəruri sayıldı.



Amerika İdman Avtomobili Klubu 1954-cü ildə yarışan sürücülərdən yarışlar zamanı təhlükəsizlik kəmərini taxmağı tələb etməyə başladı. Bu zamana qədər kəmərdən istifadə məcburi deyildi. Kəmərlərin hazırkı quruluşu isə Volvo şirkəti tərəfindən 1959-cu ildə hazırlanıb. Həmin vaxta qədər mövcud olan kəmərlər yalnız aşağı hissədən bağlanılması üçün nəzərdə tutulmuşdu. Bədənin yuxarı və aşağı hissələrini qorumaq üçün yaradılmış bu ixtira hazırda bütün avtomobillərdə istifadə olunur.



# Məlhəm evi

**Apteklərin mənşəyi olduqca qədimdir. Xəstəxanalarda dərman saxlanılan otaqları, evlərin bir hissəsində məlhəm hazırlamaq üçün ayrılmış guşələri indiki apteklərin əcdadları saymaq olar. Eramızdan əvvəl 400-cü ildə "aptek" sözü ilk dəfə təbib Hippokrat tərəfindən dərmanların saxlandığı yer mənasında istifadə edilib. Yunancadan tərcüməsi anbar mənasını ifadə edir.**

İlk əczaçılıq mətnləri (reseptlər) e.ə 3-cü minillikdə mesopotamiyalılar tərəfindən gil lövhələrə yazılmışdı. Bu mətnlərdə şəfalı otlardan istifadə üsulları göstərilmişdi. Sonralar təbiblərin təbii bitkilərdən hazırladıqları dərmanlar xəstələrə hazır şəkildə verilirdi.

Dünyada ilk aptek 754-cü ildə Ərəb xilafətinin paytaxtı Bağdad şəhərində açılıb. Bu hadisə Abbasilər xilafətinin dövrünə təsadüf edir. IX əsrə qədər apteklər dövlət tərəfindən tənzimlənirdi. Yaxın Şərqdə botanika və kimya sahəsində əldə edilən irəliləyişlər təbabətin əsaslı şəkildə inkişafına gətirib çıxarmışdı. Dövrün alimləri olan Məhəmməd ibn Zəkəriyyə Razi, Əbu əl-Qasim əz-Zəhravi və başqaları dərman istehsalı sahəsində yeniliklər haqqında müxtəlif kitablar yazmışdılar.

Avropada isə apteklər XI-XII əsrlərdə yaranmağa başlayıb. Əvvəlcə İspaniyada açılan kiçik apteklərə sonralar digər Avropa şəhərlərində də rast gəlinib. Başlanğıcın isə məhz İspaniyadan qoyulması buranın xilafətin ərazisi olması ilə bağlı olub. Venesiyadakı apteklər adi mağazaların daxilində bir bölmə kimi fəaliyyət göstərib.

Avropada dərman hazırlanması əsasən rahiblərin işi sayılırdı. Monastırların nəzdindəki xəstəxanalarda dərmanların hazırlanması və saxlanılması üçün xüsusi otaqlar yaradılmışdı. Rahiblər dərmanları əhaliyə pulsuz paylayırdılar.

1240-cı ildə Müqəddəs Roma imperatoru II Frederikin həkim və əczaçılıq peşələrini bir-birindən ayıran fərmanı ilə tibdə yeni səhifə açıldı. Belə ki, qəbul edilən bu sənədə əsasən ilk dəfə olaraq səlahiyyətlər məhdudlaşdırıldı. Həkimlərə dərman hazırlamaq və satmaq, əczaçılara xəstələri müalicə etmək qadağan edildi. XIII əsrə doğru bir çox aptek binaları inşa edilərək Avropanın demək olar ki, hər yerinə yayılmağa başladı. Estoniyanın Tallin şəhərində 1422-ci ilə aid olduğu iddia edilən "Town Hall" isə hələ də fəaliyyətini açıldığı binada davam etdirən aptek sayılır.

Əczaçılıq tarixinin əsas simvolu apteklərin loqolarında rast gəlinən əsaya dolanmış ilandır. Bu təsvir qədim yunan təbabət tanrısı Asklepi ilə bağlıdır. Asklepinin qızı Higeyaya məxsus simvol da əczaçılıqda məşhurdur. Sağlamlıq tanrıçasının simvolunda qədəhin gövdəsi ətrafına ilanın sarılması təsvir edilib. Günümüzdə mövcud olan "gigiyena" sözü Higeyanın adından yaranıb.

# Yanğına çarə briqadaları

**Fədakarlıqlarını nümayiş etdirərək, hər şeyə rəğmən yanğının söndürülməsi və zərərçəkənlərin xilası uğrunda başlıca missiyalarını həyata keçirənlər bir çox fövqəl hadisənin qəhrəmanlarıdırlar.**




Keçmişdə evlərin çox vaxt taxtadan tikilməsi və damların samanla örtülməsi böyük təhlükə yaradırdı. İlk mütəşəkkil yanğınsöndürmə xidmətinə Romada VI əsrdə Oktavian Avqustun hakimiyyəti altında başlanılıb. "Vigillər" adlı yanğınsöndürənlər bu sahə üzrə təlim keçmiş qullardan ibarət idi. Onlar gecələr şəhərin gözətçiləri kimi xidmət edir, yanğınları müşahidə edərək baş verən hadisələrin qarşısını alırdılar.

Romada hər birində 560 nəfər olmaqla ümumilikdə yeddi yanğınsöndürən batalyon olub. Onlar avadanlıq kimi qarmaq, nərdivan, kəndirlərdən və s. istifadə ediblər. Su əsasən fəvvarələrdən, hövzələrdən və quyulardan çəkilirmiş. Sonrakı illərdə Vigillər yanğından qorunmaq üçün Roma İmperiyasının digər şəhərlərinə də yayılmışdılar.

Orta əsrlərə qədər yanğınla mübarizə istiqamətində əsaslı addımlar atılmamışdı. Hətta 1666-cı ildəki dəhşətli London yanğını zamanı müdaxilə üçün yanğından mühafizə sistemi yox idi. Bunun nəticəsi olaraq bir çörək dükanında başlayan, 4 gün boyunca davam edən yanğın şəhərin böyük hissəsinə yayılmış, 10 minlərlə insanı evsiz qoymuşdu.

Yanğın hadisələrinin artmasından sonra sığorta şirkətləri müştərilərin əmlakını qorumaq üçün özəl yanğınsöndürmə briqadaları yaratdılar. Bu briqadalar yalnız şirkətin sığortaladığı binalarda yanğınla mübarizə aparırdı. Belə briqadaların çoxalması rəqabəti artırsa da, yanğını söndürmək uğrunda döyüşən qrupların davalarına səbəb olurdu, yanğın meydançaları bir çox halda mübarizə meydanına çevrilirdi.

İlk vaxtlarda su ilə doldurulmuş vedrələri qullar suyun olduğu yerlərdən yanğın ərazilərinə daşıyırdılar. London yanğınından sonra əl nasosunun ixtirası ilə, həmçinin hollandiyalı Yan Van der Heidenin hazırladığı dəri şlanqla bu sahədə üstünlüklər əldə edilmişdi. Təkmilləşdirilmiş yanğınsöndürən maşının hazırlanması isə 1721-ci ildə Riçard Nyuşam tərəfindən təklif edilmişdi. Maşınlar yanğın sahələrinə atlarla çəkilib gətirilir, yanğınsöndürməni daha effektiv edirdilər. 1870-ci illərdə binalarda yanğın pilləkənlərinin quraşdırılması xilas olmaq və briqadaların evlərə daxil olması üçün əlverişli üsul hesab edilirdi.

*Aydan XƏLİLOVA,*
*"Azərbaycan"*




# "Tesla"nın onlayn tətbiq mağazası



**"Tesla" onlayn internet tətbiqlər mağazasını açmağı planlaşdırır. Bunun sayəsində sahibləri öz "Tesla" elektromobillərinə müxtəlif tətbiqləri yükləyə biləcəklər.**

Bu isə bir növ "Google Play Store" və "App Store" kimi platformalardan tətbiqlərin yüklənməsinə bənzəyəcək. Şirkət bu barədə məlumatları ötən ilin sonunda öz "Tviter" səhifəsində video şəklində paylaşmışdı.

Bu gün ən müasir texnoloji yenilikləri ilə hamının heyran edən şirkət insanların rahatlığı və məmnunluğu üçün milyonlarından belə keçməyə hazırdır. Yeniliklər isə hələ ki, bitib tükənmir.

# "Samsung"un yeni planşetləri

**Bir-birindən fərqli texnoloji yenilikləri ilə qlobal rəqabətdə aparıcı mövqelərdə yer alan "Samsung" şirkəti bu yaxınlarda "Galaxy S22" smartfonunu və "Galaxy Tab S8" planşetini təqdim edib. Bu seriyaya "S8", "S8+" və "S8 Ultra" modelləri daxildir.**



Yeni "S8" planşeti "Qualcomm" prosessoru və "S Pen" stilusuna malikdir, 2560x1600 piksel keyfiyyətli 11 düymekran ilə təchiz olunub. "S8+" modelin isə 2800x1752 piksel keyfiyyətli 12.4 düym ekranı var. "S8" modelində barmaq izi texnologiyası planşetin yandırıb-söndürmə düyməsinə, "S8+"da isə birbaşa ekrana inteqrasiya edilib. Stilus yumşaq başlığa sahibdir və bunun sayəsində planşet ekranının zədələnməsi ehtimalı aradan qalxır. Bundan əlavə, stilus jestlərlə idarəni dəstəkləyir. Bununla da planşet kamerasını uzaqdan işə salmaq, prezentasiya slaydlarını sıralamaq və ya media fayllarını oynatmaq asanlıqla mümkündür. Planşetlərin çərçivələrinə ön kamera üçün nəzərdə tutulmuş kiçik dairəvi çıxıntı yerləşdirilib. Batareya göstəriciləri baxımından planşetlər fərqlənirlər. Planşetdəki arxa kameralar saniyədə 30 kadr sürətlə 4K keyfiyyətində və saniyədə 30 kadr sürətlə videolar çəkir. Bununla yanaşı, planşetlər 4 ədəd stereo səsgücləndiricilərlə təchiz olunub, "Dolby Atmos" texnologiyasını dəstəkləyirlər.

Həmçinin qeyd etmək lazımdır ki, "S8 Ultra" premium sinfinə daxildir və ənənəvi noutbuku əvəzləyə bilər. Bunun üçün o, böyük ölçülü ekran, güclü texniki özəlliklər, "S Pen" stilusu və qoşula bilən klaviatura ilə təmin olunub. Yeni ultra modeldə "2960x1848" piksel keyfiyyətli 14.6 düym Super AMOLED ekranı quraşdırılıb. Maksimal dərəcədə nazik çərçivələrə sahib olduğu üçün ikili ön kamera ekran üzərindəki kiçik çıxıntı hissədə yerləşdirilib. Barmaq izi texnologiyası birbaşa ekrana inteqrasiya edilib.

"S8 Ultra" modelində də 4 ədəd stereo səsgücləndirici var və o da "Dolby Atmos" texnologiyasını dəstəkləyir.

# Ulduzları saymaq mümkün olacaqmı?

**İnsan aydın gecə səmasında orta hesabla 6000-ə yaxın ulduz saya bilər. Lakin bu, göydəki ulduzların ümumi sayının kiçik bir hissəsidir. Ulduzların çoxu elə uzaq məsafədə yerləşir ki, adi gözlə onları görmək mümkün deyil.**



Alimlər kainatda mövcud olan ulduzların ümumi sayının təyin olunması üçün yeni üsul tapıblar. Kainatda ulduz qruplarından, planetlərdən, qazdan və tozdan ibarət qalaktikalar mövcuddur. Yer kürəsi spiral formasında olan "Süd yolu" qalaktikasında yerləşir. Fərqli formalı qalaktikalar da mövcuddur. Məsələn, onlar elliptik formaya sahibdirlər. Mütəxəssislər bildirirlər ki, ulduzların ümumi sayını təyin etmək üçün öncə mövcud qalaktikaların sayını müəyyən etmək lazımdır. Astronomlar səmanın böyük olmayan hissələrinin detallı fotolarını çəkiblər və bu fotolarda əks olunmuş qalaktikaların saylarını təyin ediblər. Əldə edilmiş ümumi say bütün səmanı əks etdirmək üçün lazım olan fotoların ümumi sayına vurulub. Beləliklə, məlum olub ki, kainatda düz iki trilyon qalaktika mövcuddur. Lakin alimlər bu qalaktikalarda nə qədər ulduzun olduğunu hələ ki, dəqiq bilmirlər. Hələlik alimlər yalnız "Süd yolu" qalaktikasındakı ulduzların təxmini sayını müəyyən edə biliblər.

"Süd yolu"ndakı ulduzlar müxtəlif ölçülərə və rənglərə malikdirlər. Məsələn, Günəş ağ rəngə, orta kütləyə və orta ölçüyə sahibdir. Onun temperaturu 15 milyon selsi dərəcə təşkil edir. Yüksək kütlə və temperaturu olan ulduzların əksəriyyəti mavi rəngdədir. Buna misal kimi Lira bürcündəki Veqa ulduzunu göstərmək olar. Kiçik kütləli və az temperaturlu ulduzlar adətən qırmızı rəngdə olur. "Proksima Sentavr" ulduzu buna misaldır.

Qırmızı, ağ və mavi ulduzlar müxtəlif sayda işıq saçırlar. Bu işığı, onun parlaqlığını və rəngini ölçməklə alimlər "Süd yolu" qalaktikasında hansı sayda ulduzun mövcud olduğunu təyin edə bildiklərini deyirlər.

Qeyd edək ki, qalaktikada təxminən 100 milyard ulduz sayrışır.

# Hərəkət edən qara dəlik

**Ulduz kütləli qara dəlikləri yalnız ikili ulduz sistemlərində aşkar etmək mümkündür. Alimlər ilk dəfə olaraq kosmik məkanda müstəqil şəkildə hərəkət edən qara dəlik aşkar ediblər. Dəliyin kütləsi və ölçüsü də təyin olunub. İddia edilir ki, "Süd yolu"nda bu cür kosmik obyektlərin sayı daha çox ola bilər.**



İndiyədək qalaktikada aşkarlanmış ulduz kütləli qara dəliklər öz kosmik partnyorları ilə qravitasiya əlaqəsində olublar. Bu cür kosmik obyektlər qismində adətən neytron ulduzlar çıxış edirlər. Aparılmış tədqiqatlar nəticəsində alimlər təyin ediblər ki, kosmik məkanda müstəqil şəkildə hərəkət edən bu qara dəliyin kütləsi Günəşin kütləsindən təqribən 7.1 dəfə böyükdür və o, kosmik məkanda saatda 162.000 kilometr sürətlə hərəkət edir. Sözügedən qara dəlik Yer kürəsindən təqribi olaraq 5150 işıq ili uzaqlığındadır.

Alimlər düşünürlər ki, təkcə bizim qalaktikada ulduz kütləli 100 milyon qara dəlik mövcuddur. Onların çəkisi Günəşin kütləsindən bir neçə dəfə böyükdür. İndiyə qədər bu cür qara dəlikləri onların kosmik partnyorları ilə qarşılıqlı əlaqə hesabına aşkar etmək mümkün olmuşdu. Qalaktikada bu cür qara dəliklərin sayı bildiyimizdən daha çoxdur.

Müstəqil şəkildə mövcud olan ulduz kütləli qara dəliyi "Hubble" teleskopu vasitəsilə aşkar edilib. Bunun üçün alimlər qravitasiya linzasından istifadə ediblər. Qravitasiya linzası dedikdə yüksək kütləli kosmik obyekt nəzərdə tutulur. O, öz qravitasiya gücü hesabına elektromaqnit şüalanmasını təhrif edir. Beləliklə, aşkarlanmış qara dəlik öz qravitasiya gücü hesabına fon ulduzlarının işıqlarını təhrif edib və alimlər bunun sayəsində onun varlığından xəbərdar ola biliblər.

# Süni zəka

**Çinlilər süni şəkildə yetişdirilən embrionlar sahəsindəki texnoloji problemi həll ediblər. Bunun üçün süni zəkadan istifadə edilib. Belə ki, çinlilərin yaratdıqları süni zəka sistemi xüsusi qurğu daxilindəki çoxlu sayda siçan embrionlarının eyni anda yetişdirilməsinə nəzarət edir. Bu texnologiya həmçinin insan embrionlarının da süni şəkildə yetişdirilməsinə imkan verə bilər. Lakin bu məsələdə etik tələb və normalar əsas maneədir.**



Hazırda Çində demoqrafik problemlər yaşanır. Son 5 il ərzində burada əhalinin təbii artım səviyyəsi 2 dəfə aşağı düşüb. Hökumət tərəfindən həyata keçirilən tədbirlər gənc nəslə mənsub olan qadınları övlad sahibi olmağa sövq edə bilmir. İnkişaf etmiş ölkələrdə bu məsələ daha ciddidir. Sənaye müəssisələri səviyyəsində uşaqların yetişdirilməsi əhalinin təbii artım səviyyəsinin aşağı düşmə problemini aradan qaldıra bilər. Lakin bunun üçün, ilk növbədə, insanların düşüncələrində, qanunlarda dəyişiklik etmək və siyasi iradəyə malik olmaq lazımdır. Çətin ki, yaxın gələcəkdə Çində buna bənzər nəyəsə icazə verilsin. Lakin heyvan embrionlarının süni şəkildə yetişdirilməsi üzrə texnologiyalar demoqrafik problemlə üzləşən bir çox ölkədə bu kəşfə böyük maraq yaradır.

Çinli alimlərin sözlərinə görə, onların yaratdıqları xüsusi qurğu və "machine learning" sistemi embrionların sağlamlığına yüksək dəqiqliklə nəzarət edə bilir. Bu iş alqoritmlər vasitəsilə həm vizual, həm də embrionların olduqları mühitin daimi analizi sayəsində reallaşdırılır. Həmin sistem embrionlarla bağlı olan ən kiçik detalları belə diqqətdən kənarda qoymur. Halbuki qadınlar və onlara nəzarət edən həkimlər çox zaman həmin faktorları, ümumiyyətlə, nəzərə almırlar.

# "Nissan" elektromobilləri



**"Nissan" şirkəti, ABŞ istisna olmaqla, xidmət göstərdiyi digər bütün bazarlarda avtomobillər üçün nəzərdə tutulmuş yeni növ daxili yanma mühərriklərinin istehsalını dayandıracaq və əsas diqqəti elektromobillərə yönəldəcək. Beləliklə, "Nissan" Yaponiyanın bu cür addım atacağı ilk avtomobil istehsalçısı olacaq. Qeyd etmək lazımdır ki, şirkət Avropada satılan avtomobillər üçün artıq benzin və dizel mühərriklərinin istehsalını dayandırıb. Buna baxmayaraq, şirkət ABŞ-da satılan avtomobillər üçün daxili yanma mühərriklərini məhdud rejimdə hazırlamağa davam edəcək.**

ABŞ bazarında əsas diqqət pikaplar üçün nəzərdə tutulmuş mühərriklərin hazırlanmasına yönəldilib. Çünki pikaplara bu ölkədə tələbat çoxdur.

Yeni növ daxili yanma mühərriklərinin yaradılmasından imtinanın əsas səbəbi ondadır ki, indi dünyanın daha çox ölkəsində nəqliyyat vasitələri tərəfindən atmosferə buraxılan zərərli tullantıların məhdudlaşdırılması üzrə daha sərt qanunlar qəbul edilir, insanları elektromobillərə keçməyə stimullaşdırırlar.

Yeni avtomobillərdə karbon oksidlərinin tullantıları 3 və hətta 10 dəfə aşağı olmalıdır. "Nissan" təyin edib ki, yeni ekoloji standartın tətbiqi ilə daxili yanma mühərriklərinin yaradılmasına sərf edilən vəsaitin miqdarı da yüksələcək. Şirkətdən bildirilib ki, tədricən Yaponiya və Çində satılan avtomobillər üçün də ənənəvi mühərriklərin istehsalı dayandırılacaq.

Benzinlə çalışan avtomobillərdən hələ də istifadə olunduğu üçün indi "Nissan" mövcud olan mühərriklərin təkmilləşdirilməsi ilə də məşğul olacaq.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

*14 Fevral Beynəlxalq Kitab Bağışlama Günüdür*

# Kitab dostumuz, ən dəyərli bilik mənbəyimizdir

**“Kitab, yaşından asılı olmayaraq, hər kəsin dostu, həyatda yolgöstərənidir…” Kitabın insan həyatındakı rolu əvəzsizdir. Həyatımız boyu kitabın dünyagörüşümüzdə, hərtərəfli inkişafımızdakı rolunu hiss edirik. Məhz buna görə kitab bizim dostumuza çevrilir. Bir-birimizə kitab hədiyyə edəndə də məhz onun dəyərini nəzərə alırıq. Oxunaqlı kitab isə daha qiymətli hədiyyə hesab edilir.**



Dünyada kitaba olan maraq və tələbat diqqətdən kənarda qalmayıb. 14 fevral tarixinin Beynəlxalq Kitab Bağışlama Günü kimi qeyd edilməsi isə heç də təsadüfi deyil. 2012-ci ildə ABŞ-da məşhur Delightful Children's Books uşaq kitabı saytının yaradıcısı Emmi Brodmoor tərəfindən bu ideya irəli srülüb.

2013-cü ildə Cənubi Afrikadan Braziliyaya, Sinqapurdan İngiltərəyə, Hindistandan Yeni Zelandiyaya qədər fərqli ölkələrdən olan bloqqerlər birlikdə hərəkət edərək insanları həmin tarixi “Uşaqlara Kitab Vermə Günü” olaraq qeyd etməyə çağırıb. Bununla da dünyanın bir çox ölkələrində 14 fevral “Dövlətlərarası Kitab Bağışlama Günü” kimi qeyd olunmağa başlayıb. Həmin təşəbbüs bütün dünyada dəstək qazanıb və bu gün də özünə yeni iştirakçılar cəlb etməkdə davam edir. Bu əlamətdar günün yayılmasında məşhur müəlliflərin, bloqqerlərin və uşaq yazıçılarının dəstəyi mühüm rol oynayıb.

Uşaqlara kitab bağışlamaq və onlarda bu əvəzsiz hədiyyəyə məhəbbət yaratmaq həm də bütün insanları birləşdirmək anlamını verir. Ona görə də dünya əhalisi fevralın 14-nü “Beynəlxalq Kitab Bağışlama Günü” kimi qeyd edir. Uşaqlarda ömür boyu oxumağa sevgi aşılamaq və ehtiyacı olanlara onların kitab əldə etməsinə yardım göstərən kitabsevər könüllülərinin xidmətləri də əvəzsizdir.

Onlar məhz həmin gün dəyərli kitabları gənc oxucularla bölüşməyə çağırırlar. Bu, sadəcə, təbliğat forması deyil...

14 fevral bir çoxlarının yaddaşına eyni zamanda dünyada “Sevgililər günü” kimi də həkk olunub. Lakin bu tarix kitab bağışlayan və kitaba məhəbbət yaradan bütün insanları özündə daha çox birləşdirir.

Əksəriyyət 14 fevral tarixini, sadəcə, “Sevgililər Günü” kimi bilir. Amma bugünkü tarix kitabsevərlər üçün ən gözəl bayramdır. Kitab mağazasında çalışanlar da bu fikirdədirlər.

Respublikamızın bölgələrindən fərqli olaraq, paytaxt Bakıda kitab dükanlarına az da olsa, rast gəlinir. Onlardan birinin satıcısı, əslində, özü demişkən, kitabsevər Fürüzə Qədirli deyir ki, bilik mənbəyi hesab edilən kitaba maraq bu gün tamamilə fərqlidir: “Əslində, bu sahənin də özünəməxsus problemləri də, ürəkaçan faktları da az deyil. Maraqlı kitabları axtaranlara da rast gəlirik, mobil telefondan istədiyi ədəbiyyatdan yararlanmağa çalışanlara da. Ona görə kitab satışı ilə məşğul olan dükanlarda “alış-veriş” bazar səviyyəsində ola bilməz: kitab alanlar da var, almayanlar da. Alıcıların əksəriyyəti isə gənclərdir. Biz milli bayramımız olmayan “Sevgililər Günü” alıcılarımıza tövsiyə edirik ki, ən yaxşı hədiyyə kitab ola bilər. İntellektli, dünyagörüşlü gənclərimiz bununla razılaşırlar. Son zamanlar kitabsevərlərin sayı artmaqdadır...”

“Zəka” kitab mağazasında hədiyyə seçən alıcı gənc BDU-nun Filologiya fakültəsinin tələbəsi Banuçiçək Muxtarovanın da fikirləri maraqlıdır: “...Hər kəsə kitabı sevdirmək üçün ilk növbədə onu hədiyyə etmək lazımdır. Fürsət tapıb sevdiklərinizə kitab hədiyyə etsəniz, bu, onlar üçün unudulmaz bir xatirəyə çevrilə bilər. Həm sadə, həm də dəyərli olması üçün mən kitab seçərdim. Güman edərəm ki, kitabı hədiyyə edəcəyim kəs məni anlayacaq. Son illər ölkəmizdə də bu gün bir sıra tədbirlərlə qeyd edilir. Bununla da biz nəinki klassik əsərləri tapır, eyni zamanda yeni yazarları, gənc müəllifləri də tanıyır və hətta onların imzası ilə kitabları hədiyyə də edirik...”

“Beynəlxalq Kitab Bağışlama Günü” ilə bağlı fikirlərini bildirən Samir Mustafayev deyir ki, bu, təqvimdə ən gənc bayram hesab edilir. ABŞ vətəndaşının adı ilə bağlıdır: “... Bu ideyanı ona balaca oğlu verib. O, anasından niyə insanların bir-birinə kitab bağışladığı xüsusi günün olmamasını soruşub. Bundan sonra atası, kitab təbliği ilə məşğul olan sayt rəhbəri kimi ideyanı gerçəkləşdirib. Dünyanın bir çox ölkələrində 14 fevral “Dövlətlərarası kitabvermə günü” olaraq qeyd olunmağa başlayıb. Mövcud olduğu ildən bu təşəbbüs bütün dünyada dəstək qazanır və indi də yeni iştirakçılar cəlb etməkdə davam edir. Bu əlamətdar günün yayılmasında məşhur müəlliflərin, bloqqerlərin və uşaq yazıçılarının dəstəyi mühüm rol oynayıb. Hər il minlərlə həm oxunmuş, həm də yeni kitablar dünyanın bütün istiqamətlərinə yola salınır. Bu, uşaqlarda kitaba məhəbbət, böyüklərdə isə bağışlamaq, hədiyyə etmək sevinci yaradır...”

***Məhəmməd NƏRİMANOĞLU,***
***“Azərbaycan”***

# Okko onlayn kinoteatrı “Azercell” ilə smartfonlarınızda

## Lider mobil operator Okko tətbiqinə abunəlik xidmətini güzəştli şərtlərlə təqdim edir

**Ölkənin lider mobil operatoru rəqəmsal məhsullar portfelini genişləndirməyə davam edir.**

Bu dəfə “Azercell Telekom” MMC MDB-nin ən böyük onlayn kinoteatrlarından biri olan Okko-nu yerli bazarda xüsusi şərtlərlə təqdim edir. Mobil operator öz abunəçilərinə dünyada 20 milyona yaxın müştərinin rəğbətini qazanan bu tətbiqdən 45 faizədək endirimlə yararlanmaq imkanı verir.

Qeyd edək ki, Okko vasitəsilə 90.000-dən çox bədii və cizgi filmlərini, eləcə də serialları heç bir reklam fasiləsi olmadan Full HD 4K və 8K keyfiyyətində izləmək mümkündür. Həmçinin xidmət smart funksiyası olan televizorların əksəriyyətində də mövcuddur.

“Azercell” Okko onlayn kinoteatrına güzəştli qiymətlərlə Optimum paketinə abunəliyi təqdim edir. Bu paketə Paramount+, Vip Play, Okko Lite, uşaqlar




üçün xüsusi kontent, elm-təhsil sahəsinə dair veriliş və filmlər daxildir. Bundan əlavə, paketə abunə olanlar karaoke xidmətindən istifadə edib, dünya üzrə məşhur hitləri ifa etmək imkanı da əldə edirlər.

Okko-ya üç növ - gündəlik, həftəlik və aylıq abunə təklif edilir. Gündəlik abunənin xidmət haqqı 0.35 AZN, həftəlik abunə 1.5 AZN, aylıq abunə isə cəmi 4.99 AZN təşkil edir. Hazırda bu xidmətin aylıq abunəliyinə qoşulanlar 30 gün Okko onlayn kinoteatrından pulsuz istifadə etmək imkanı qazanacaq.

Okko xidmətinə həm USSD kod, həm SMS vasitəsilə abunə olmaq mümkündür. Gündəlik paket üçün *800#, həftəlik abunə üçün *890#, aylıq paket üçünsə *899# kodunu yığmaq lazımdır. Bu zaman xidmətə qoşulmaq üçün məlumat və yükləmə linki SMS-lə telefona göndərilir.

SMS vasitəsilə xidmətə qoşulmaq üçün Start gun, Start hefte və Start ay sözlərini paket növünə uyğun olaraq 6660 qısa nömrəsinə göndərmək lazımdır. Bu xidmətə abunəliyi “Azercell”in “Kabinetim” mobil tətbiqi üzərindən də aktivləşdirmək olar.

Bağlantını asanlaşdırmaqla abunəçilərinin həyatını daha da dolğun etməyi hədəfləyən “Azercell” indi də onları bir abunədə minlərlə filmə baxmaq fürsətindən yararlanmağa dəvət edir.


# OXUCULARIN NƏZƏRİNƏ!

# “AZƏRBAYCAN”

*qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| “Azərpoçt” MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| “Qaya” firması | (012) 566-77-80, (050) 214-40-53 |
| “Region Press” MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| “Səma-M” MMC | (012) 594-09-59 |
| “Ziya” LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| “Pressinform” MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| “City press” MMC | (055) 819-09-26 |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


◆ **Dünya gündəmi**

# ABŞ-da inflyasiya 40 illik rekordu vurub

## Pandemiyanın başlanğıcından bəri işsizlik ilk dəfə 4 faizdən aşağı düşüb





Yanvar ayında ABŞ-da inflyasiya illik hesablamada 7,5 faizə qədər sürətlənib və son 40 ilin yeni maksimumuna çatıb. Bu barədə Əmək Nazirliyinin məlumatlarına istinadən “The Wall Street Journal” qəzeti xəbər verir.

Keçən dəfə qiymət artımı dekabr ayında, 1982-ci ildən etibarən, inflyasiya 7 faizə çatdıqda, rekord həddə yüksəlib. Bildirilir ki, inflyasiya göstəricisinə avtomobil, mebel və məişət texnikasının, eləcə də uzunmüddətli istifadə olunan digər malların qiymətlərinin bahalaşması əhəmiyyətli təsir göstərib.

Eyni zamanda, inflyasiyanın sürətləndirilməsi pandemiyanın fonunda tələb və təklifin disbalansından qaynaqlanır.

Qəzetin qeyd etdiyinə görə, əksər iqtisadçılar biznesin uyğunlaşdırılmasından və tələbatın normallaşdırılmasından sonra qiymətlərin artması tempinin zəifləyəcəyini proqnozlaşdırırlar. Eyni zamanda, qeyd edilir ki, qiymətlərə təzyiqin azalması üçün təchizat problemlərinin nə vaxt həll olunacağı aydın deyil.





Məqalədə həmçinin ətin, yumurtanın və sitrus meyvələrinin bahalaşması, enerjidaşıyıcılarının qiymətlərinin zəifləməsinin əlamətləri bildirilir.

İnflyasiya barədə məlumatlar açıqlandıqdan sonra ABŞ-ın fond indeksləri aşağı düşüb. Hərracın əvvəlində “S&P 500” indeksi 1,2 faiz, “Nasdaq Komposite” indeksi 1,75 faiz itirib, “Dow Jones Industrial Average” sənaye indeksi 0,6 faiz azalıb.

10 illik xəzinə istiqrazlarının gəlirliliyi isə qısa müddətdə - 2,5 il ərzində ilk dəfə 2 faizi üstələyib. Bu rəqəm zirvə nöqtəsində 2,001 faizə çatıb, lakin sonra 1,986 faiz göstəricisinə qayıdıb.

Xatırladaq ki, ötən ay ABŞ Federal Ehtiyat Sisteminin (FES) rəhbəri Cerom Pauell inflyasiya ilə mübarizənin mütləq prioritet olacağını bildirib. Maliyyə tənzimləyicisi stimullaşdırıcı proqramların azaldılmasını davam etdirmək və dərəcələrin artırılmasına başlamaq niyyətindədir.

FES üçün uzunmüddətli hədəf 2 faizlik inflyasiyaya nail olmaq və işsizliyin 2 faizə endirilməsidir. Dekabr ayının nəticələrinə görə, ABŞ-da işsizlik pandemiyanın başlanğıcından bəri ilk dəfə 4 faizdən aşağı düşüb.

***Rizvan HİLALOĞLU,***
***“Azərbaycan”***

# Son bir ildə 600-dən çox işəgötürən işçilərin icbari sığortası ilə əlaqədar müqavilələr bağlayıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti işçilərin istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində əmək qabiliyyətinin itirilməsindən icbari sığorta olunmalarına elektron sistem üzərindən nəzarəti davam etdirir.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, icbari sığorta müqaviləsi olmayan işçilər üzrə işəgötürənlər müəyyən olunaraq onların həmin müqavilələri bağlamağı üçün “Əmək müqaviləsi bildirişi” altsistemində xəbərdarlıq məlumatları yerləşdirilib.

Həmçinin bu sahədə inzibati xəta halları aşkar olunan işəgötürənlə əlaqədar qanunvericiliyə uyğun tədbirlər görülüb. Görülən işlərin nəticəsi kimi son bir ildə 632 işəgötürən tərəfindən işçilərinin icbari sığorta olunması üçün müqavilələr bağlaması təmin edilib.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisin deputatı Musa Qasımlıya anası

**SİDİQƏ KAZIMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Zakir Fərəcov və Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısı aparatının kollektivi Sumqayıt Şəhər Polis İdarəsinin rəisi, polis polkovniki Fəqan Azadəliyevə atası

**CƏBRAYIL AZADƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdir müavini Rövşən Muradova anası

**İRADƏ MURADOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin rəhbərliyi və kollektivi agentliyin keçmiş əməkdaşı

**XALİD HACIBALA OĞLU İSMAYILOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahova əzizi

**XƏZƏR ABBASOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin Ümumi iqtisad fakültəsinin 1984-cü il buraxılış, 932-ci qrupun məzunları qrup yoldaşları

**XƏQANİ MAMED OĞLU XUDAQULUYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

**“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-də çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

*Gündəlik qəzet*

**Tiraj 5421**
**Sifariş 385**
**Qiymıti 40 qəpik**